QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 222 (5694) **23 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanı və Türkmənistanı tarixi köklər birləşdirir

*Ilham Əliyev: "Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik"*



Səh 2

**Ölkənin ərzaq təhlükəsizliyi onun siyasi və iqtisadi təhlükəsizliyinin qarantı sayılır**



6

**Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib**



5

**"Azərbaycan dövlətlərlə bərabərhüquqlu əməkdaşlığa söykənən münasibətlər qurur"**



5

**Rusiyalı jurnalistlə Ermənistan səfirliyi arasında gərgin mükalimə davam edir**



7

**Seymur Orucov müxalifət gənclərinə çağırış etdi**



5

**Bu il Azərbaycana 2,4 milyondan çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib**



5

7

**"Maliyyə yardımı problemlərimizin həllinə kömək edəcək"**



14

**İlqar Məmmədov-Əli Kərimli qarşıdurması yeni mərhələdə**

16

**"Qalatasaray" Adebayoru transfer edəcək**



# Azərbaycanı və Türkmənistanı tarixi köklər birləşdirir

## İlham Əliyev: *"Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik"*



***Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Azərbaycanın və Türkmənistanın dövlət himnləri səsləndi. Türkmənistanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edildi.

Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları görüşdə çıxış ediblər. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov çıxışında diqqətə çatdırıb ki, Türkmənistan və Azərbaycan xalqlarının qədim, zəngin mənəvi ənənələri olub. Sevindirici haldır ki, həm Türkmənistan, həm də Azərbaycan müasir mərhələdə həmin potensialdan istifadə edir:

"Həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir"







"Biz bunu siyasi arenada, iqtisadi məsələlərimizdə, bir sıra başqa sahələrdə görürük. Bu baxımdan bizim güclü ehtiyatımız var. Biz bu ehtiyatdan həm xalqlarımızın rifahı naminə, həm də regional və beynəlxalq səviyyədə istifadə edə bilərik. Ən başlıcası odur ki, biz bütün bunlardan istifadə edirik. Biz Birləşmiş Millətlər Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumların üzvləriyik. Vurğulamaq istərdim ki, bu gün Türkmənistan və Azərbaycan BMT-nin Davamlı İnkişaf Məqsədlərini həyata keçirir. Bizdə təkcə regionda deyil, bütün dünyada sabitlik və təhlükəsizlik kimi məsələlərə ortaq münasibət var. Onu demək istərdim ki, biz öz imkanlarımızı nəzərə alaraq regional və beynəlxalq səviyyədə iqtisadiyyat və iqtisadi inteqrasiya sahələrində əməkdaşlıq potensialından istifadə edə bilərik.

Ardı Səh. 3

# Azərbaycanı və Türkmənistanı tarixi köklər birləşdirir

## İlham Əliyev: "Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik"

Əvvəli Səh. 2



Buna görə biz əlbəttə ki, Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Artıq qeyd etdiyim kimi, bizim çox yaxşı imkanlarımız var. Bizim köklərimiz, tariximiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz ortaqdır. Biz çox haqlı olaraq vətənpərvərlik göstərir, bu dəyərlərin böyüməkdə olan nəslə ötürülməsi işinə incəsənət xadimlərini, yaradıcı ziyalıları cəlb edirik.

Gördüyünüz kimi, bu gün təkcə Sizinlə bizim aramızda, iki dövlət arasında deyil, həm də region və dünya miqyasında çox iş görülür. Buna görə fürsətdən istifadə edib Sizə təşəkkürümü bildirmək istərdim, ilk növbədə, ona görə ki, Siz Türkmənistan ilə Azərbaycan arasında dostluq tellərinin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz."

***

Azərbaycan Prezidenti İlham Əliyev də öz çıxışında bildirib ki, bizim ortaq köklərimiz var və bu, bizi birləşdirir:

"Sağ olun, hörmətli cənab Prezident. Mən, ilk növbədə, qardaş Türkmənistana səfərə dəvətə görə Sizə təşəkkür etmək istərdim. Dünən Sizin torpağa qədəm qoyduğum andan özümü öz evimizdəki kimi hiss edirəm. Bu, qardaş türkmən xalqının qonaqpərvərliyi, şəxsən Sizin qonaqpərvərliyiniz sayəsindədir.

> "Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüslərini daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik"



Azərbaycanda Sizi ölkəmizin böyük dostu kimi tanıyırlar. Siz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün çox iş görürsünüz. Fürsətdən istifadə edib Sizi və Türkmənistanın bütün qardaş xalqını inkişafda qazandığınız böyük nailiyyətlərə, Türkmənistanın beynəlxalq aləmdə rolunun möhkəmlənməsinə, milli-mənəvi dəyərlərə çox diqqət yetirməyinizə və xalqınızın ənənələrini qoruyub saxlamağınıza və bunları yeni nəsillərə ötürməyinizə görə təbrik etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim ortaq köklərimiz var və bu, bizi birləşdirir. Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik. Buna görə düşünürəm ki, mənim səfərim bizim qardaşlıq münasibətlərimizin möhkəmlənməsi işinə xidmət edəcək. Azərbaycanda biz Sizin uğurlarınıza sevinirik. Biz əminik ki, qardaş Türkmənistan xalqı Sizin müdrik rəhbərliyinizlə bundan sonra da tərəqqi yolu ilə irəliləyəcək. Əlbəttə, belə yaxşı imkanlardan istifadə etməklə əməkdaşlığı möhkəmlətmək lazımdır. Biz məhz bununla məşğuluq və əminəm ki, səfər bu istiqamətdə çox səmərəli olacaq."

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov:

-Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edim. Əlbəttə, Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim mehriban qonşuluğumuzun, qarşılıqlı hörmətin, beynəlxalq aləmdə, ticari-iqtisadi əməkdaşlıq məsələlərində və mədəni-humanitar sahədə təsəvvürlərimizin şaxələndirilməsinin məntiqi davamıdır.

Xarici siyasət məsələlərinə gəldikdə, bizim prinsiplərimiz şübhəsiz ki, oxşardır və ya üst-üstə düşür. Yəni, biz həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasına tərəfdarıq. Sizə təşəkkür edirik ki, beynəlxalq aləmdə Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri dəstəkləyiriniz. Əlbəttə, biz bütün məkanlarda, BMT və ATƏT kimi nüfuzlu qurumlarda, beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Mənim fikrimcə, bu da çox düzgündür. Əlbəttə, tərəfdaşlıqda elə məsələlər var ki, biz onlara da münasibət bildirməliyik. Terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transsərhəd cinayətkarlıq kimi təhdidlər və çağırışlar bu qəbildəndir.

Ardı Səh. 4

# Azərbaycanı və Türkmənistanı tarixi köklər birləşdirir

## İlham Əliyev: "Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik"

Əvvəli Səh. 3

Buna görə də biz əlbəttə ki, belə təhdidlərə qarşı mübarizəni bundan sonra da davam etdirəcəyik.

Demək istərdim ki, Xəzər dənizi də bizi birləşdirir. Bu yaxınlarda Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusu barədə Konvensiyanı qəbul etdilər. Buna görə bizim üçün burada da, o cümlədən mehriban qonşuluq məsələlərində çox böyük imkanlar yaranır. Başlıca məsələ odur ki, biz hamımız eyni fikirdəyik - Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir və biz bundan sonra da fəaliyyətimizi bu ruhda davam etdirəcəyik.

Bizim ticari-iqtisadi məsələlərimizə gəldikdə, iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya fəaliyyət göstərir və buna görə Sizə təşəkkür edirik. Sevindirici haldır ki, bu ilin 9 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artıb. Kənd təsərrüfatı, tikinti, sənaye kimi sahələrdə yaxşı meyllər yaranıb. Azərbaycanın yeni texnologiyaları əlbəttə ki, bizi cəlb edir. Hər halda bütün dünya rəqəmsal texnologiyalara, rəqəmsal iqtisadiyyata keçir. Buna görə də biz gələcəkdə də bu ruhda davam edəcəyik.

***

Azərbaycan Prezidenti İlham Əliyev:

-Sağ olun, əziz Qurbanqulu Məlikquliyeviç.

Mən, ilk növbədə, qonaqpərvərliyə, dəvətə, səmimi qəbula görə təşəkkür etmək istərdim. Mən yenidən qardaş Türkmənistan torpağında olmağıma şadam. Mən dünən ölkənizin nailiyyətləri ilə tanış olmaq imkanı qazandım və bu, Türkmənistanın inamlı müsbət inkişafının nümayişidir. Şəxsən Sizi və bütün Türkmənistan xalqını quruculuq yollarında böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm.

Biz də səfərə böyük əhəmiyyət veririk və səfər çox yaxşı hazırlanıb. Səfərin yekunları üzrə xeyli sənədin imzalanacağı nəzərdə tutulub. Əminəm ki, onlar vaxtında reallaşacaq və bununla da bizim əməkdaşlığımız üçün daha yaxşı şərait yaranacaq.

Biz Türkmənistanla əməkdaşlığa böyük əhəmiyyət veririk. Siz qeyd etdiyiniz kimi, bizim ümumi köklərimiz, tariximiz, xalqlarımızın yaxınlığı elə bir bünövrədir ki, onun üzərində öz birgə gələcəyimizi qururuq. Həm də təsadüfi deyil ki, biz beynəlxalq qurumlarda birgə fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İkitərəfli planda əməkdaşlıq potensialını gücləndiririk və bütün bunlar sabitliyə doğru aparır, regional təhlükəsizliyi möhkəmləndirir. Bu gün regional təhlükəsizliklə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Biz görürük ki, dünyanın müxtəlif guşələrində toqquşmalar, qanlı hadisələr baş verir, dövlətlərin təməlini sarsıdan proseslər gedir. Buna görə də düşünürəm ki, belə mürəkkəb vəziyyətdə həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir.



"Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir"

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar. "Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdı Toylıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın sənaye naziri Xoşgeldi Mergenov imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üzrə ticarət-iqtisadi əməkdaşlıq Proqramı"nı Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər. Əvvəlcə Türkmənistan Prezidenti bəyanatla çıxış edib. Prezident Qurbanqulu Berdiməhəmmədov öz bəyanatında bildirib ki, həm Türkmənistanın, həm də Azərbaycanın beynəlxalq məsələlər barədə baxışları eynidir, yaxud bənzərdir. Bunlar həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması məsələləridir:

"Buna görə də bu gün biz beynəlxalq aləmdə xarici siyasi kursumuzdan, yəni, Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüslərini daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik.

Onu da demək istərdim ki, bu gün biz həm də bizi birləşdirən ümumi məsələlərimiz üzrə fikir mübadiləsi apardıq. Bu, Xəzər dənizi məsələsidir. Bildiyiniz kimi, bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya qəbul olunub. Biz həmişə bildiririk ki, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. Buna görə də biz gələcəkdə də, əlbəttə, öz siyasətimizi aparacağıq.

Bu gün biz ticari-iqtisadi məsələlərdən danışarkən çox böyük aspekti, yəni, yaxşı təmasa malik olduğumuz sahələri - kənd təsərrüfatını, tikintini, sənayeni, yeni texnologiyaları nəzərdən keçirdik. Nəqliyyat məsələlərinə, məhz nəqliyyat-tranzit dəhlizlərinin və düzgün logistikanın tərtib olunmasına toxunduq. Əlbəttə, əsas məsələlər energetika məsələləri idi. Yəni, bu məsələdə biz həmişə həmrəyik. Biz enerji resurslarımızı həm regional, həm də beynəlxalq bazarlara çıxarmaq imkanına malikik. Bu baxımdan mən, əlbəttə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyətinə görə minnətdar olmaq istərdim. Həmin komissiya çox iş görür və yəqin ki, gələcəkdə də görəcək.

Mədəni-humanitar sahədən danışarkən, əlbəttə ki, bu, bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki həm Türkmənistan, həm də Azərbaycan, bizim xalqlarımız vahid köklərə, adətlərə, milli xüsusiyyətlərə, ənənələrə malikdir. Əlbəttə, bizim üçün sevindiricidir ki, biz müasir mərhələdə də gələcək gənc nəslin vətənpərvər ruhda böyüməsi naminə bu işi davam etdiririk. Buna görə də biz bu sahə haqqında bu kontekstdə danışarkən, bu gün bizim üçün mühüm olan tətbiqi sənət, yəni, xalçaçılığa toxunduq. Həm Türkmənistan, həm də Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Biz bu fikrə gəldik ki, həm Türkmənistanda, həm də Azərbaycanda xalça sərgisi təşkil etmək, həmçinin gələcəkdə beynəlxalq konfransın keçirilməsi haqqında düşünmək yaxşı olardı. Gördüyünüz kimi, biz bugünkü görüşdə çox geniş əhatəli məsələləri nəzərdən keçirdik, xeyli sənəd və saziş imzaladıq."

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış edib. Prezident İlham Əliyev öz bəyanatında bildirib ki, Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir:

"Hörmətli cənab Prezident. Hörmətli dostlar.

Mən Türkmənistan Prezidentinə, mənim əziz dostuma dəvətə, çox səmimi qəbula, qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Mən dünəndən qardaş Türkmənistan torpağındayam. Türkmənistanın sosial-iqtisadi inkişafındakı nailiyyətlərlə tanış olmaq imkanına malik oldum. Biz sizin uğurlarınıza da öz nailiyyətlərimiz kimi sevinirik. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından qardaş türkmən xalqına salamlarımı çatdırmaq istəyirəm. Bizi tarix, mədəniyyət, ümumi köklər, ənənələr, dünyagörüşü birləşdirir. Bu, həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir.

Səfər sona yaxınlaşır. Artıq bu gün demək olar ki, bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq. Bu münasibətlərin çox böyük potensialı var. Bu gün aparılan danışıqlarda, prezidentlər arasında təkbətək formatda, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə aparılan fikir mübadiləsi zamanı biz əməkdaşlığımızın mühüm məsələlərini müzakirə etdik. Biz görülən işlərə yekun vurduq və gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Bu gün 20-dən çox sənəd imzalanıb və onların hər birinin olduqca konkret xarakteri var. Bu, bizim münasibətlərimizin, əməkdaşlıq həcminin və nailiyyətlərimizin, bir-birimizə qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə həyat fəaliyyətinin bu cür müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Biz gələcəkdə də bir-birimizə beynəlxalq qurumlarda, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşdıq. Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu, artıq adi hala çevrilib. Amma bu, bizim münasibətlərimizin səmimiliyini göstərir."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.

# Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib

Noyabrın 22-də Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.



Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların qış aylarında daha çox nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

Paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı 204 binanın olduğunu qeyd edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların qış fəslində kommunal problemlərlə üzləşməməsi üçün aidiyyəti qurumların da komitə ilə birgə işləməsinin vacibliyini bildirib. Sədr artıq bir neçə binaya baxış keçirdiklərini və bəzi binalardakı kommunikasiya xətlərinin yenilənməsinə ehtiyac olduğunu bildirib. Qışa hazırlıqla bağlı tədbirlərin görülməsinin vacibliyini vurğulayan Baş nazirin müavini müvafiq strukturlara həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# "Türkmənlərlə azərbaycanlılar eyni kökdən formalaşan millətlərdir"



"Son zamanlar Azərbaycanla Türkmənistan arasında əlaqələrin inkişaf dinamikası artır". Bunu SİA-ya açıqlamasında millət vəkili Rasim Musabəyov deyib. Onun sözlərinə görə, Türkmənistan Azərbaycana çox yaxın bir dövlətdir: "Türkmənistan Azərbaycan üçün olduqca vacib bir ölkədir. Türk xalqları arasında bizə ən yaxını məhz türkmənlərdir. Türkmənlərlə azərbaycanlılar eyni kökdən formalaşan millətlərdir. Buna görə də düşünürəm ki, bu münasibətlər qat-qat sıx və yüksək səviyyədə olmalıdır. Ancaq təəssüflər olsun ki, bizim istədiyimiz səviyyədə o münasibətlər qurulmayıb. Azərbaycanın Qazaxıstan, Türkiyə ilə münasibətləri qat-qat yüksəkdədir. Vəziyyəti müsbətə doğru dəyişmək lazımdır. Hesab edirəm ki, cənab Prezidentin Türkmənistana səfəri bu istiqamətdə çox vacib bir addım olacaq. İnanırıq ki, bundan sonra da iki dövlət arasında bu istiqamətdə müsbətə doğru böyük dəyişikliklərin şahidi olacağıq".

# "Azərbaycan dövlətlərlə bərabərhüquqlu əməkdaşlığa söykənən münasibətlər qurur"



"Artıq neçə illərdir ki, Prezident İlham Əliyevin ikitərəfli və çoxtərəfli əsasda həyata keçirdiyi siyasəti və diplomatik gedişlərinin bir-birinin təməli və davamı olduğunu müşahidə etməkdəyik. Burada təsadüfi bir səfər, təsadüfi bir nəticə, hansısa uzaq gedən hədəflərə hesablanmamış bir addım yoxdur. Bunlar düşünülmüş münasibət qurduğumuz, əlaqələr yaratdığımız hər iki ölkənin maraqlarına, onların xalqlarının faydalarına və ümumi məqsədlərə xidmət edir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib. O bildirib ki, son illərdə Azərbaycan prezidentinin həm böyük, həm keçmiş ittifaq, həm də ən uzaq qitələrdə olan dövlətlərlə bərabərhüquqlu əməkdaşlığa söykənən münasibətlər qurduğunun şahidiyik: "Belarusla münasibətlər də bu qəbildəndir".

Belarusun Azərbaycanla münasibətlər qurmağa bizim qədər maraqlı olduğunu deyən B.Muradova söyləyib ki, çünki Azərbaycanın bölgədə, regionda inkişafı, iqtisadi, humanitar imkanları, dünya ölkələri sırasında öz yeri və sözü, nüfus sahibi olması bir çox ölkələri məqsədlər, hədəflər baxımından Azərbaycanla yaxın olmağa vadar edir.

Milli Məclisin sədr müavini vurğulayıb ki, Belarusun iqtisadi imkanları, coğrafi üstünlükləri bu və ya digər məqsədlər uğrunda mövqe birliyi olması Azərbaycanı Belarusla yaxın münasibətlər qurmağa sövq edən amillərdir: "Azərbaycan Prezidentinin Belarusa səfəri bunun bariz nümunəsi oldu. Ən əsası Belarus prezidenti cənab Lukaşenkonun Dövlət başçısı İlham Əliyevin ünvanına söylədiyi fikirlər, onun şəxsiyyətinə olan hörməti nəinki bir prezident kimi, Belarus xalqının da bir xalq kimi cənab prezidentin bu səfərini çoxdan gözlədiyini vurğulaması bu münasibətlərin nə qədər yüksək səviyyədə, həm qarşılıqlı ikitərəfli əməkdaşlığa, həm də şəxsi dostluğa, şəxsi münasibətlərə əsaslanan bir münasibət olduğunu ortaya qoydu".

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Məzahir Pənahovun sədrliyi ilə noyabrın 22-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2018-ci il 30 mart və 15 aprel tarixində keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 5 saylı Şahbuz-Babək, 7 saylı Ordubad-Culfa, 19 saylı Nərimanov birinci, 24 saylı Nizami birinci, 40 saylı Kəpəz ikinci, 61 saylı Neftçala, 82 saylı Ağcabədi və 122 saylı Xankəndi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələri iclasda iştirak edib.

# Seymur Orucov müxalifət gənclərinə çağırış etdi



"Ümumiyyətlə, bütün Azərbaycan vətəndaşlarına bərabər hüquq verilib. Bu gün artıq müxalifətin ən böyük taktikası, arzusu ondan ibarətdir ki, ajiotaj yaratmaqla nəsə əldə etməkdir. Çünki xalq tərəfindən bunlara dəstək olmur. Onlara ancaq havadarları dəstək olur". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, hər hansı bir aksiyanı, piketi və yaxud tədbiri həyata keçirəndə bunun arxasında birinci növbədə xalq kütləsi gəlməlidir və onları dəstəkləyən qüvvələr olmalıdır: "Amma onlar artıq bunu edə bilməyəcək qədər zəifləyiblər. Onların yanlarında yalnız 5-10 nəfər insan qalıb. Bunun üçün də qanunu pozmaqla məşğul olurlar və diqqəti özlərinə cəlb etməyə çalışırlar. Onların yanlarında olan gənclərin isə sosial şəbəkələrdə heç "facebook" səhifələri real deyil. Bunu hamı bilir. Mən bunu edən gənclərimizə üzümü tutub deyirəm ki, siz bunların arxasınca getməyin. Onlar cəmiyyət tərəfindən qəbul edilməyən antimilli ünsürlərdirlər. Əgər bunlar özünə güvənməyib xaricdən dəstək alırsa, millət onları heç zaman dəstəkləməyəcək. Ötən gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-ci ildönümü qeyd edildi. Bu gün xalq bizi, cənab Prezidentimizi dəstəkləyir. Xalq iqtidarla birlikdədir. Müxalif gənclərimizə üz tutub deyirəm ki, bu işlərdən əl çəksinlər və yalnız öz dövlətlərini sevsinlər. YAP Gənclər Birliyinin qapıları onlara açıqdır. Qoy gəlib siyasi fəaliyyətlərini burada davam etdirsinlər".

# Bu il Azərbaycana 2,4 milyondan çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2 milyon 420,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gələnlərin 31,1 faizi Rusiya Federasiyası, 20,2 faizi Gürcüstan, 10,1 faizi Türkiyə, 8,9 faizi İran, 3,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,8 faizi Səudiyyə Ərəbistanı, 2,6 faizi İraq, 2 faizi Ukrayna, 1,6 faizi İsrail, 17,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 65,5 faizini kişilər, 34,5 faizini isə qadınlar təşkil edib. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 7,7 faizi yanvar, 6,9 faizi fevral, 11,4 faizi mart, 9 faizi aprel, 8,6 faizi may, 11,1 faizi iyun, 13,6 faizi iyul, 13,3 faizi avqust, 9,6 faizi sentyabr, 8,8 faizi isə oktyabr ayında ölkəyə gəlib.

Bu ilin on ayında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə ölkəmizə gələn Bəhreyn və Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Küveyt vətəndaşlarının sayı 2 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 13,7 faiz, Oman vətəndaşlarının sayı 6,3 faiz artıb. İrandan gələnlərin sayında 33 faiz, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 6,7 faiz azalma müşahidə edilib. Ümumilikdə Körfəz ölkələrindən 492,9 min nəfər gəlib və ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri bu ölkələrin vətəndaşları olub.

Yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,3 faiz artaraq 99,4 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,1 faiz artaraq 891 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 56,5 faizi dəmir yolu və avtomobil, 42,5 faizi hava, 1 faizi isə su nəqliyyatından istifadə edib.

On ayda 4 milyon Azərbaycan vətəndaşı xarici ölkələrə səfər edib

Cari ilin yanvar-oktyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,2 faiz artaraq 4 milyon 14,6 min nəfər olub. Ölkə vətəndaşlarının 32,2 faizi İrana, 29,6 faizi Gürcüstana, 19,1 faizi Rusiya Federasiyasına, 12,9 faizi Türkiyəyə, 1,5 faizi Ukraynaya, 0,9 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib. Səfər edənlərin 65,6 faizi kişilər, 34,4 faizi isə qadınlar olub. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 61,4 faiz, Gürcüstana gedənlərin sayı 2,7 faiz artıb, Rusiya Federasiyasına gedənlərin sayı 1 faiz, Türkiyəyə gedənlərin sayı 0,3 faiz azalıb. Yanvar-oktyabr aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 80,8 faizi dəmir yolu və avtomobil, 18,4 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

# Ölkənin ərzaq təhlükəsizliyi onun siyasi və iqtisadi təhlükəsizliyinin qarantı sayılır

## İlham Əliyev: "Ərzaq təhlükəsizliyi ilə bağlı əldə edilmiş nailiyyətlər çox sevindiricidir"



**Bu gün Azərbaycanın qarşısında duran ən vacib vəzifələrdən biri də əhalinin təhlükəsiz ərzaq məhsulları ilə etibarlı təminatıdır. Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın əsas şərtidir. Məhz buna görə də, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin ərzaq təhlükəsizliyi məsələsini diqqət mərkəzində saxlayıb və bu məsələnin gələcək nəsillər üçün olduqca vacib və aktual olduğunu nəzərə alaraq, ərzaq təhlükəsizliyi məsələsini özünün dövlətçilik strategiyasının əsas elementləri sırasına daxil edib.**

Məhz bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı məsələsini özünün iqtisadi strategiyasının əsas komponenti kimi, daim diqqət mərkəzində saxlamaqla, bu istiqamətdə xüsusi dövlət tədbirləri həyata keçirir.

Bu da real faktordur ki, bu gün ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət dövlət başçısının imzaladığı fərman və sərəncamlar əsasında təsdiqlənmiş dövlət proqramları nəticəsində əldə olunub. Ölkəmizdə əhalini təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırmaq qarşıdakı dövr üçün də əsas vəzifələrdən biri kimi müəyyənləşdirilib. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli və 2017-ci il 10 noyabr tarixli Fərmanları bu baxımdan, müstəsna əhəmiyyətə malikdir.

### Ərzaq təhlükəsizliyi ilə bağlı əldə edilmiş nailiyyətlər və böyük nəticələr

Məhz bu səbədən də, dövlət başçısı bütün çıxışlarında ərzaq təhlükəsizliyinin prioritet olduğunu bildirir və bu sahənin daima diqqət mərkəzində saxlanıldığını vurğulayır. Belə ki, Prezident İlham Əliyevin regionlara səfərləri zamanı keçirilən müşavirələrdə də qarşıda duran əsas vəzifələrdən birinin ərzaq təhlükəsizliyi olduğunu diqqətə çatdırıb: "Ərzaq təhlükəsizliyi prioritet məsələlərdəndir və bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə isə, daha böyük nəticələr gözlənilir".

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün strateji məhsullar sırasında əsas yeri taxıl tutur. Bu baxımdan iri taxılçılıq təsərrüfatlarının yaradılması istər ölkəmizin özünütəminatına, istərsə də xaricdən idxala yönələn maliyyə sərfiyyatının azalmasına xidmət edir. Belə təsərrüfatların yaradılması hər hektar sahədən bol məhsuldarlıq əldə etməklə yanaşı, yüksək reproduksiyalı toxumların artırılmasını şərtləndirir. Dövlətin əsas siyasəti idxaldan asılılığı minimuma endirmək, ərzaq bolluğu yaradıb ixrac potensialına münbit şərait yaratmaqdır.

Son illər Azərbaycanda heyvandarlığın inkişafı istiqamətində də işlər sürətlənməkdədir. Xaricdən cins mal-qaranın alınması, modern üslublu komplekslərin yaradılması, süni mayalanma yolu ilə alınan hər buzova görə dövlət tərərfindən verilən 100 manat həcmində subsidiya, eləcə də süd zavodlarının açılışı əhalinin süd və süd məhsulları ilə təminatında mühüm rol oynayıb. Kərə yağı və pendirlə təminatda yaranan problem







də yaxın illərdə aradan qaldırılacaq.

Ərzaq təhlükəsizliyində ət və quş əti istehsalı da mühüm yer tutur. Artıq bu sahədə ixrac üçün əlverişli şərait yaranıb. Son iki ildə quş ətinin ixracı artıb. Bu da ölkəmizin adıçəkilən sahələr üzrə özünü 100 faiz təmin etməyə yaxınlaşmasıdır. Yeni fermalar, aqroparklar, quş fabrikləri, süd zavodları açılandan sonra təminat 100 faizi keçəcək. Nəticədə əlavə bazarlar axtarılacaq. Bu istiqamətdə heyvandarlığın inkişafı üzrə dövlət proqramının hazırlanaraq qəbul edilməsi gözlənilir. Azərbaycan bu il dövlət xətti ilə xaricdən daha 10 min baş cins mal-qara alacaq.

Bütün bunlarla yanaşı, ölkəmizdə yaradılan aqroparklar ərzaq təhlükəsizliyinin təminatı üçün mühüm amildir. Aqroparklar ilk növbədə, kənd təsərrüfatı istehsalının qeyri-kənd təsərrüfatı fəaliyyətləri ilə vahid istehsal məkanında birləşməsinə zəmin yaradır. İstehsal, emal, marketinq və menecment sisteminin zəncirvari quruluşu, müasir texnika, informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi, məsrəflərin minimuma endirilməsi, ətraf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə bir daha onu sübut etdi ki, ölkədə aqrar sektorun keyfiyyətcə yeni və daha sivil siması qurulur. Azərbaycan Prezidentinin təşəbbüsü və dəstəyi ilə həyata vəsiqə alan aqroparklar ölkə iqtisadiyyatında ən səmərəli iqtisadi model kimi təsdiqini tapıb. Artıq neçə ildir soyuducular və taxıl anbarları, logistika ilə bağlı digər məsələlər ölkəmizdə uğurla həll edilir. Hazırda 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan 27-si bitkiçilik, 16-sı isə heyvandarlıq üzrə aqroparklardır. Bu aqroparklara 183 min hektar torpaq ayrılıb.

### Qida Təhlükəsizliyi Agentliyinin yaradılması Prezident İlham Əliyevin sosial siyasətinin təməlində insan amilinin dayandığını bir daha təsdiqləyir

Ərzaq təhlükəsizliyinə xidmət edən daha bir qurumun - Qida Təhlükəsizliyi Agentliyinin yaradılması da əhalinin keyfiyyətli qidalarla təminatı üçün vacib addımdır. Hazırda dünyada orqanik məhsullar daha baha satılır. Bu xüsusda keyfiyyətli məhsulların ixracının daha da artırılmasında heç bir problem yaranmayacaq. Ona görə ki, Azərbaycanda orqanik məhsulların istehsalı ilə bağlı narahatlıq yoxdur. Belə məhsullar həm də tərəvəz istehsalına aiddir. 2018-ci ildə tərəvəz istehsalı və ixracı kəskin artacaq. Buna həm də dörd yüz hektardan çox sahəsi olan istixanaların yaradılması böyük stimul verəcək. İstixana komplekslərinə marağın artması, üstəlik gigiyenik şəraitdə yetişdirilən məhsullara ehtiyacın duyulması ixrac potensialını kəskin şəkildə artıracaq. 400 hektarda salınacaq istixanaların əsas prinsipi daxili bazara deyil, ixraca yönələcək. Meyvə istehsalının artımı da ərzaq təhlükəsiliyində mühüm faktordur. Yalnız xurma və narın istehsalının artımı və ixracında bu sahənin inkişafını müşahidə etmək mümkündür.

Göründüyü kimi, Azərbaycanda əhalinin qida məhsulları ilə etibarlı təminatı Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir və son illərdə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində ciddi addımlar atılır.

Bütün bunlar Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial siyasətin təməlində məhz insan amilinin dayandığını bir daha təsdiqləyir.

**RƏFİQƏ KAMALQIZI**

VƏRƏSƏLƏRDƏN SORĞU

***Xəbər verdiyimiz kimi, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Artıq noyabrın 14-dən birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Şəhid hərbi qulluqçuların vərəsələri nazirliyin rəsmi saytında sorğu verərək ödəmə almaq hüquqlarını öyrəndikdən sonra notariat kontorlarına müvafiq sənədləri təqdim edir, vərəsəlik şəhadətnaməsi əldə edirlər. Sənədlər notariat kontorları tərəfindən elektron qaydada nazirliyə təqdim olunur. Nazirlikdəki müvafiq işçi qrupu həmin sənədlərin təhlilini aparılır. Bu günə kimi 150-yə yaxın şəhid hərbi qulluqçuların vərəsələrinə müvafiq vəsait verilib.***

# "Maliyyə yardımı problemlərimizin həllinə kömək edəcək"

## Vərəsəlik hüququna malik olan şəhid hərbi qulluqçuların ailə üzvlərinin aldıqları maliyyə yardımı ilə bağlı fikirlərini təqdim edirik:



Tovuz rayonundan şəhid olmuş hərbi qulluqçu Rzayev Namiq Qənbər oğlunun anası Navad Rzayeva şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılığını ifadə edib: "Tovuz rayonun Əlbəyli kəndini təmsil edən biri, eləcə də şəhid anası kimi ölkə başçısı İlham Əliyevə maliyyə yardımı ilə bağlı göstərişinə görə təşəkkürümü bildirirəm. Biz hər zaman dövlətin şəhid ailələrinə qayğısını hiss edirik. Amma birdəfəlik maliyyə yardımı bizə bir sıra problemlərimizin həlli üçün çox yardım edəcək. Yaşımla əlaqədar olaraq səhhətimdə bir sıra problemlərim var. Aldığım maliyyə yardımı ilə iki gözümü də əməliyyat etdirəcəm".

Naftalan rayonundan şəhid olmuş hərbi qulluqçu Zeynalov Azər Ələddin oğlunun atası Ələddin Zeynalov: "Nəinki mən eləcə də vərəsəni alan bütün şəhid ailələri bu maliyyə yardımından yararlanmaq imkanı qazandıqları üçün dövlətimizə minnətdardır. Prezident İlham Əliyev, eləcə də birinci xanım Mehriban Əliyeva hər zaman şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində çalışır, problemlərimizin həllinə dair tapşırıqlar verirlər. Bizə ayrılan maliyyəni ailəmizə verilən ehtiyat büdcəsi kimi dəyərləndiririk. Biz bu maliyyə ilə vəsaiti ilə həm sağlığıma, həm də nəvələrimin təhsili üçün istifadə etməyi düşünürəm. Bütün Azərbaycan xalqının, eləcə də şəhid ailələrinin bir arzusu var ki, o da tezliklə torpaqlarımızın işğaldan azad edilməsidir. Biz əmin ki, Azərbaycan bayrağı tezliklə Qarabağda ən uca zirvədə dalğalanacaq".

Quba rayonundan şəhid olmuş hərbi qulluqçu İbrahimov İslam Soltanəhməd oğlunun anası Sultanxanım İbrahimova ailəsinin Ölkə başçısı tərəfindən imzalanan fərmandan yararlanmasına görə sevincli olduğunu dilə gətirib: "Bu fərmanın verilməsi gözlənilməz olsa da, həllini gözləyən problemlərimin həlli üçün əsil fürsət oldu. Şəhid ailələri dövlətin bütün yardımlarından yararlanan təbəqədir. Amma buna baxmayaraq, müəyyən problemlər olur ki, onların həlli üçün əlavə vəsaitin olmasına böyük ehtiyac yaranır. 11 min manat məbləğində birdəfəlik yardım bizə bu istiqamətdə çox böyük köməyə malik olacaq. Dövlət başçımız hərbçilərimizin qayğısına qalır. Kim bu işlərdən narazıdırsa, problem onun özündədir. Ölkəmizdə bu istiqamətdə aparılan işləri alqışlayıram və təşəkkür edirəm".

Bərdə rayonundan şəhid olmuş hərbi qulluqçu Dadaşov Mehman Əsədulla oğlunun atası Əsədulla Dadaşov söyləyib ki, şəhid hərbi qulluqçularına ayrılan maliyyə yardımı bir daha göstərir ki, dövlətimiz hər zaman bizim qayğımıza qalır və problemlərimizlə yaxından maraqlanır: "Tarix boyu xalqımızın mərd, vətənpərvər oğulları çox olub. Mən də belə bir oğlun atası olduğum üçün fəxr edirəm. Ölkə başçısı tərəfindən hər zaman humanist addımlar atılır. Lakin belə bir fərmanın verilməsi bizim üçün gözlənilməz oldu. Bu addımı yüksək səviyyədə qarşılayırıq. Bütün bunlar bir daha göstərir ki, dövlətimizin vətənpərvər insanlara, torpaq uğrunda vuruşanlara necə önəm verdiyini göstərir".

Naxçıvan Muxtar Respublikasından şəhid olmuş hərbi qulluqçu Vəliyev Yusif Yaqub oğlunun həyat yoldaşı Arzu Vəliyeva aldığı məvacibi qızı ilə birgə böləcəyini söyləyib: "Əslində bizə ayrılan birdəfəlik yardımdan həyat yoldaşımın atası da yararlanmalıdır. Amma bizim sosial problemlərimizin daha çox olduğunu nəzərə alaraq, o öz hissəsindən imtina edərək bizə bağışlayıb. 11 min manat heç də az vəsait deyil. Bu məvaciblə bir çox həllini gözləyən problemlərimizi həll etməyi nəzərdə tutmuşuq. Evdə iki qadın, yəni qızımla bərabər olduğumdan müəyyən çətinliklərimiz var. Lakin bizi sevindirən bu Fərmana görə Prezident İlham Əliyevə dərin minnətdarıq. Şəhid ailəsi olmaq çox çətindir. Amma ölkədə diqqət-qayğı gördükdə bu bizi ümidləndirir və tək olmadığımızı göstərir. Mən bütün şəhid ailələrinə səbir diləyirəm. Əminəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq və torpaqlarımız Ali Baş Komandanın səyləri nəticəsində tezliklə geri qayıdacaq".

Quba rayonundan şəhid olmuş hərbi qulluqçu Ağarzayev Kamran Ələkbər oğlunun atası Ələkbər Ağarzayev isə bildirdi ki, tarix boyu xalqımızın mərd, vətənpərvər oğulları çox olub. Ümumiyyətlə, qəhrəman insanlarımız dünən də var idi, bu gün də, sabah da olacaq. 2016-cı ilin aprel döyüşlərində mərd oğullarımız düşmənə layiq olduğu cavabı verdi. Nəticədə, bir çox strateji ərazilər geri qaytarıldı. Düşmən isə kor-peşman halda geri çəkildi. Həmin döyüşlərdə şücaət göstərən, qəhrəmanlıq salnaməsi yazan eloğullarımız da az olmadı. Şəhidlərin ailələrinə bu gün dövlətimiz tərəfindən böyük qayğı var, onların ailələri də bizim kimi hər cür şəraitə malik mənzillərlə təmin olunublar. Bütün bunlar dövlətimizin vətənpərvər insanlara, torpaq uğrunda vuruşanlara necə önəm verdiyini göstərir".

Şəmkir rayonundan şəhid olmuş hərbi qulluqçu İskəndərov Vaqif Əbülfəz oğlunun həyat yoldaşı Tinatin İsgəndərova Fərmanla bağlı qərarı eşidərkən həddindən artıq həyəcan keçirdiyini dilə gətirib: "Ölkəmizdə şəhid ailələri hər zaman dövlətin qayğısını hiss edir. Bizə ayrılan birdəfəlik maliyyə yardımla bağlı qərarı eşidəndə çox sevindik. İki oğlum və mən nə deyəcəyimizi belə bilmədik. Prezident İlham Əliyev hər zaman humanist addımları ailələrin, insanların sevincinə səbəb olur. Amma şəhid ailələri ölkə rəhbərinin qayğısını daha çox hiss edir və buna görə, Prezidentə və Onun xanımına minnətdardır. Bizim ailədə də maliyyə yardımına görə, özünə borc bilib Prezident İlham Əliyevə humanist addımla bağlı təşəkkür məktubu göndərib".

Balakən rayonundan şəhid olmuş hərbi qulluqçu Əliyev Arif Mustafa oğlunun atası Əliyev Mustafa deyib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə diqqətin göstərildiyini nəzərə alsaq, bu addım gözlənilən idi: " Düzdür bunun nə zaman baş verəcəyini heç kim biə bilməzdir. Amma əminəm i, indiki şəraitdə belə fərman bütün vərəsələrin ürəyindən oldu. Şəhid ailələri dövlətin qayğısından razıdırlar. Amma elə məsələlər var ki, onların həllini dövlətdən gözləmək düzgün deyil. Çox təəssüf ki, bəziləri onlara göstərilən qayğıdan istifadə edib, dövlətə qarşı haqsız iradlar səsləndirirlər sürürlər. Bu, düzgün deyil. Heç bir ölkədə dövlət tərəfindən vətəndaşlarına bu qədər qayğı göstərilmir. Prezidentimiz seçildiyi ilk gündən verdiyi vədlərinə sadiq olaraq, dediyi sözlərə əməl edir. Ölkəmizin inkişaf edir. Mən ailəm adımdan Azərbaycan Prezidentinə bizə göstərilən qayğıya görə təşəkkür edirəm".

Şəmkir rayonundan şəhid olmuş hərbi qulluqçu Hüseynov Novruz Cəbrail oğlunun həyat yoldaşı Nahidə Hüseynova bildirib ki, aldığı maliyyə yardımı ailəsinə bəzi sosial problemlərinin həllində göydən düşmə olub: "Müəyyən problemlərimiz var idi onların həlli maliyyə çatışmazlığına görə yubanırdı. Amma indi aldığımız vəsaitlə həmin məsələlər öz həllini tapacaq ki, buna görə çox sevinirik. Prezident İlham Əliyev bu fərmanı ilə şəhid ailələrinin ümidinə bir az daha ümid qatdı. Hər zaman vətəndaşlarımızın sosial vəziyyətini düşünən Dövlət başçısı bu addımı ilə bizim qayğı və problemi ilə yaxından maraqlandığını bir daha göstərmiş oldu. Xəstəliyimlə əlaqədar II qrup əliləm, bununla yanaşı Prezident təqaüdü də alıram. İki övladımla birgə hər zaman dövlətin qayğısını hiss edir və buna görə Dövlət başçısına minnətdarlığımızı bildiririk".

***Nailə Məhərrəmova***

## Rusiyalı jurnalistlə Ermənistan səfirliyi arasında gərgin mükalimə davam edir



Məşhur rusiyalı jurnalist, "Qovorit Moskva" radiostansiyasının baş redaktoru Sergey Dorenko ilə Ermənistanın Rusiyadakı səfirliyi arasında gərgin mükalimə davam edir. AZƏRTAC "Sputnik" agentliyinin saytına istinadla xəbər verir ki, Ermənistanın səfirliyi jurnalisti ölkənin baş naziri vəzifəsini icra edən Nikol Paşinyan haqqında "heç bir əxlaq çərçivəsinə sığmayan" ifadələr işlətməkdə ittiham edib və S.Dorenkonun "Paşinyan siyasət sahəsində seçim edə bilmədiyi kimi, cinsi azlıqlara münasibətdə də mövqeyini müəyyən edə bilməyib" sözlərini bütün erməni xalqına qarşı təhqir kimi qiymətləndirib. Səfirlik, həmçinin jurnalistin Paşinyanı cinsi azlıqların Yerevanda keçirilən forumuna müsbət yanaşmaqda ittiham etməsini də "erməni liderin imicinə vurulan ciddi zərbə" kimi qiymətləndirib.

S.Dorenko səfirliyin bəyanatına cavabında bildirib ki, onun erməni xalqını təhqir etmək niyyəti olmayıb və söz azadlığı çərçivəsində N.Paşinyan haqqında düşüncələrini dilə gətirib.

## Avropa İttifaqı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə 1 milyon avro yardım ayıracaq



Avropa İttifaqı (Aİ) Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) 1 milyon avro məbləğində yardım ayıracaq. AZƏRTAC xəbər verir ki, bu barədə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas bildirib. K.Jankauskas deyib: "Avropa İttifaqının Azərbaycana ayırdığı vəsaitlər üzrə prioritet sahələr təhsil, o cümlədən peşə təhsili, kənd yerləri əraziləri və kənd təsərrüfatının inkişafıdır. İndiyədək KOBİA-nın yaradılmasına, eləcə də bu sahədə qanunun qəbul edilməsinə dəstək vermişik. Həmçinin agentliyə 1 milyon avro yardım göstərəcəyik".

# Yeni Azərbaycan Partiyası qaliblər və qələbələr partiyası olaraq, tarixi zəfərlərə imza atıb

*Tanınmış ictimai-siyasi xadimlər YAP-ın 26-cı ildönümü ilə bağlı öz ürək sözlərini çatdırıblar*

## Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov:

- 6 illik zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyasının ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsi təsadüfi xarakter daşımır. Hər şeydən əvvəl, Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Monolit və avanqard siyasi qüvvə



kimi Azərbaycanın dinamik inkişafına öz layiqli-dəyərli töhfələrini verən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olmasını göstərən ən mühüm amillərdən biri onun öz sıralarında dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq, bütün insanları birləşdirməsidir. Bu, partiyamızın yüksək nüfuzunu əks etdirən başlıca göstəricilərdəndir.

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Bəllidir ki, Yeni Azərbaycan Partiyası olduqca mürəkkəb - Azərbaycanın xaos, qarşıdurma və tənəzzül ilə qarşı-qarşıya olduğu şəraitdə yaranıb. Üstəlik, həmin dövrdə müstəqilliyi yeni əldə etmiş respublikamız erməni təcavüzü ilə üzləşmişdi. Həmin vaxt hakimiyyətdə olan səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhv olma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Ayrı-ayrı partiyalar isə silahlı dəstələrə malik qüvvələr kimi sırf öz korporativ maraqları uğrunda mübarizə aparırdılar. Yəni onlar üçün milli mənafe anlayışı və ölkənin xilası məsələsi heç bir əhəmiyyətə malik deyildi.

Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. Həmin dövrdə Ümummilli Lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı Ümummilli Liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli Lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi. Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın ən yeni tarixinin möhtəşəm siyasi hadisəsi idi. Çünki bu partiya yarandıqdan sonra avanqard və mütərəqqi siyasi qüvvə kimi milli maraqlara xidmət edən siyasi fəaliyyəti ilə Azərbaycanın inkişafına fundamental töhfələr verdi, ölkədə sabitliyin və təhlükəsizliyin təmin olunmasında misilsiz xidmətlər göstərdi.

Məlumdur ki, YAP müxalifət partiyası kimi yaranmışdı, həmin dövrdə özünün nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydaları və formalarını müəyyənləşdirdi, müxalifətçiliyin nə demək olduğunu cəmiyyətə nümayiş etdirdi. YAP göstərdi ki, müxalifətçilik xalqa, dövlətə qarşı fəaliyyət göstərmək deyil, sabitlik və tərəqqiyə xidmət edən mütərəqqi ideyalarla çıxış etmək, cəmiyyətin və ölkənin inkişafı üçün milli maraqlara əsaslanan fəaliyyət göstərməkdir. Ən əsası, Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi sistemini formalaşdırdı, siyasi mədəniyyətin təşəkkülünü təmin etdi.

Əlbəttə, bütün bunlar Yeni Azərbaycan Partiyasının yüksək nüfuzunu şərtləndirən fundamental amillərdir. Təsadüfi deyil ki, bu gün partiyamızın sıralarında 700 mindən çox insan birləşib və onların mühüm bir hissəsi gənclərdən ibarətdir.

Hər hansı bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir. Şübhəsiz ki, seçkilərin nəticələri partiyanın cəmiyyətdaxili siyasi proseslərdə yeri və rolunu müəyyən edir, insanların ona rəğbət və etimadını göstərir. Bu baxımdan, YAP bu günə qədər qatıldığı bütün seçkilərdə - bələdiyyə, parlament və prezident seçkilərində möhtəşəm zəfərlərin altına imza ataraq, qələbələr partiyası olduğunu sübuta yetirib. Bu, hər şeydən əvvəl, YAP-ın öz gücünü xalqın dəstəyindən aldığını göstərir və partiyanın fəaliyyətinin Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir.

Nəticə etibarilə, Yeni Azərbaycan Partiyası ötən 26 il ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərib.

Təsadüfi deyil ki, ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Yeni zirvələr fəth edən Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Xalqımız Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçməsini, bu hərtərəfli və dinamik inkişafın bütün sahələri əhatə etməsini çox yüksək qiymətləndirir. Azərbaycan vətəndaşları ölkəmizin inkişafının, sabitliyin davam etməsini istəyir, iqtidarın həyata keçirdiyi siyasətə mütləq inam və etimadlarını ifadə edirlər. Yəni xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir.

## YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Nurlana Əliyeva:

-Müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması təşkil edir. Bu mərhələni ona görə qürur və iftixar hissi ilə şanlı tarix adlandırırıq ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə xaos və hərc-mərclik içində olan, vətəndaş müharibəsi və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanın xilası-



nın, tənəzzüldən azad olaraq tərəqqi yoluna nail olmasının əsası qoyuldu. Milli maraqların keşiyində duran və vətənpərvərlik hissinin daşıyıcısı olan hər bir azərbaycanlının etibarlı partiyasına çevrilən YAP-ın müstəqil Azərbaycanın siyasi tarixindəki misilsiz roluna nəzər salmaq üçün bir sıra məqamlara toxunmaq lazımdır.

Məlum olduğu kimi, həmin dövrdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi, ölkəni idarə edə bilməməsi səbəbindən Azərbaycan, hətta parçalanmaq təhlükəsi ilə üzüzə qalmışdı. Ölkəmizin sərvətlərinə göz dikən bədxah qüvvələr Azərbaycanı xaos meydanına çevirməyə və öz maraqları əsasında idarə etməyə çalışırdılar. İnsanlar həmin dövrdəki rəhbərliyin ölkəni xilas edəcəyinə inanmırdılar. Məhz belə bir dövrdə güclü siyasi liderə və təşkilatlanmış qüvvəyə ehtiyac olduğu üçün insanların mənəvi gücünü səfərbər etmək, ölkəmizi düşdüyü mürəkkəb vəziyyətdən xilas etmək naminə Ulu Öndər Heydər Əliyev vətənpərvər ziyalıların təkidli çağırışlarını və müraciətlərini nəzərə alaraq Yeni Azərbaycan Partiyasını yaratdı. YAP-ın yaranması həm də tarixi zərurətin nəticəsi, sosial sifariş - çağırış idi. İlk günlərdən partiyanın sıralarına ən nüfuzlu şəxslər, ziyalı və vətənpərvər insanlar toplaşdı. "SƏS" qəzeti vasitəsilə ziyalılarımızın Ulu Öndər Heydər Əliyevə müraciəti və bu qəzet vasitəsi ilə Onun tarixi cavabı xilas yolunun, müstəqilliyimizin qorunmasında atılan addımların ilki idi. Əslində, YAP xalqın partiyası kimi yarandı, onun çətinliklərini dəf etmək üçün fəaliyyətə başladı. İnsanlar YAP-ın simasında sivil mübarizənin yollarını müəyyən etdilər. Demokratik prinsiplərə və qaydalara alışdılar. YAP-ın siyasi səhnəyə gəlişi ilə cəmiyyətdə dövlətçilik, müstəqillik ideyaları, vətənpərvərlik duyğuları, sanki, yenidən daha mütəşəkkil şəkildə formalaşmağa və yaşamağa başladı.

Tarix özü YAP-ın ümumxalq partiyası olduğunu sübuta yetirdi. Ötən müddət ərzində partiyamız dövlətimiz və cəmiyyətimizin inkişafına misilsiz, layiqli töhfələr verdi, vətənpərvər, ziyalı insanları öz ətrafında sıx birləşdirdi. Bu gün xalqın partiyası olan YAP Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında gündən günə inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrlik etdiyi YAP ötən zaman kəsiyində xalqın inam və etimadı əsasında bütün seçkilərdə möhtəşəm qələbələr qazandı, öz fəaliyyətini uğurla davam etdirdi.

O cümlədən, partiyamızın qadınlar siyasətində qurduğu siyasət, bilavasitə xanımların Azərbaycanın inkişaf və tərəqqisində daha fəal olmasına geniş şərait yaradır. Xüsusilə, Azərbaycanın Birinci Xanımı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədr müavini, eləcə də partiyanın Qadınlar Şurasının İdarə Heyətinin üzvü olmasından qürur hissi keçiririk. Bu fakt bir daha göstərir ki, dövlətimizlə partiyamızın məramı qoşa qanad kimi cəmiyyətimizin inkişafına istiqamətlənib. Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycan qadınına örnək olan, ona yol göstərən fəaliyyətdir. Bu mənada, YAP Qadınlar Şurasının üzvləri də öz fəaaliyyətlərində Mehriban xanımın fəaliyyətini bir örnək kimi qəbul edir.

Son olaraq, özəlliklə qeyd etmək istərdim ki, partiyamızın 26 illik yubileyi respublikamızın hər bir bölgəsində bayram əhvalında, təntənəli şəkildə qeyd edilir. Bu, xalqımızın Yeni Azərbaycan Partiyasına dərin rəğbət və hörmətinin bariz nümunəsidir. Mən də bütün təbriklərə qoşularaq hər bir yeni azərbaycançını ürəkdən təbrik edir, fəaliyyətlərinə uğurlar diləyirəm.

## YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin üzvü Aqiyə Naxçıvanlı:

-Müstəqil və müasir Azərbaycanın inkişafı və tərəqqisində Yeni Azərbaycan Partiyasının özünəməxsus yerinin və nəhəng rolunun olması özünü kifayət qədər sübuta yetirən mühüm faktor kimi qiymətləndirilmәlidir. Məhz fəaliyyətinin geridə qoyduğu 26 ili ərzində YAP, ölkəmizin inkişaf strategiyası istiqamətində və bütün sahələrdə öz mütərəqqi sözünü demiş, bu gün də həmin siyasət uğurla davam etdirilməkdədir.

Söz yox ki, bütün bunların təməlində Ulu Öndər Heydər Əliyevin tarixi yeni azərbaycançılıq ideologiyası dayanır və bu ideologiyanın həyata keçirilməsi sayəsində xalqımızın rifah halı daha da yaxşılaşmaqda, sosial-ictimai, eləcə də siyasi mühit daha geniş spektrləri əhatə etməkdədir. Yeni Azərbaycan Partiyasının 26 illik fəaliyyəti bu kimi əsaslara söykənərək, istər regionun, istərsə də Qafqazın ən böyük partiyasına çevrilib.

# Yeni Azərbaycan Partiyası qaliblər və qələbələr partiyası olaraq, tarixi zəfərlərə imza atıb

*Tanınmış ictimai-siyasi xadimlər YAP-ın 26-cı ildönümü ilə bağlı öz ürək sözlərini çatdırıblar*

Ölkəmizin ən çətin dövrlərində yaranan Yeni Azərbaycan Partiyasının blokada şəraitində yaşayan ulu diyarımız Naxçıvanda təsis edilməsinin də məxsusi tarixi reallıqları mövcuddur ki, bu gün həmin reallıqlar keçilən yolun nə qədər çətin olduğunu bir daha sübut edir. Azərbaycanın dünyadakı nüfuzunun yüksəklərə qalxması, beynəlxalq tribunalardan ölkəmizin haqq və ədalət səsinin yüksəlməsi, hazırkı məqamda o illərin tarixi həqiqətlərini gözlər önündə canlandırmaqdadır. Bu, bir xilas, yenidən itirilmək təhlükəsi yaşayan müstəqilliyimizin qorunması üçün atılmış və həyat riski olan tarixi həqiqətlərdir. Partiyamızın qurucusu, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev



dühası bu riskləri gözünün altına alaraq, xalqımızın çağırışına səs verdi.

Bu gün Heydər Əliyev ideologiyası bilavasitə əbədi, sarsılmaz dayaqlara söykənərək, xalqçılıq və dövlətçilik prizmalarından çıxış edərək istər daxili, istərsə də xarici siyasət vektorunda özünü uğurla sübuta yetirməkdədir. Xalqımızın Ümummilli Lideri, Heydər Əliyevin layiqli davamçısı olaraq, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev Cənablarının yorulmaz fəaliyyəti və qətiyyəti əldə edilən hər bir nailiyyətin məntiqi nəticələrini ehtiva etməkdədir. Qeyd etmək istərdim ki, bu gerçəklik özünü uğurlu qadınlar siyasətində də sübut edir. Belə ki, ölkəmizdə qadınlar cəmiyyət həyatının müxtəlif sahələrində - ictimai, siyasi, mədəni, hüquqi, sosial, təhsil, istisadi və digər sahələrdə uğurla təmsil olunur və yüksək fəallıq nümayiş etdirirlər. Onların əksər çoxluğunun, məhz YAP-ın sıralarında yer almaları hər birimizdə qürur hissi oyadır. Təqdirəlayiq haldır ki, bu gün də bütün fəaliyyətini xalqımızın, dövlətimizin inkişafına həsr edən belə işgüzar, vətənpərvər və milli-mənəvi dəyərlərə bağlı qadınlarımız var və onlar dövlətçilik yolunda dönməz əqidələri ilə fəaliyyətlərini göstərməkdədirlər.

Bu mənada, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti hər bir azərbaycanlı qadın üçün nümunə və iftixar mənbəyidir. Bu gün adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik, alicənablıq məzmunu ilə uzlaşdırılan Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin - istər siyasi, istər humanitar sahələrdə gördüyü işlərinin Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artması, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin güclənməsində rolu böyükdür. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. Çünki onun humanitar, elm və təhsil sahələrində həyata keçirdiyi tədbirlər həm Azərbaycanda, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir, eyni zamanda, qadınların cəmiyyətdəki rolunun artırılmasına dəstəkdir. Məhz bu reallıqlar Yeni Azərbaycan Partiyasının fəaliyyətində, qadınlar siyasətinin təməlində özünəməxsus çalarları ilə seçilməkdədir. Mən, Yeni Azərbaycan Partiyasının bütün üzvlərini qədəm qoyduğu 26-cı ili münasibəti ilə ürəkdən təbrik edirəm, onların hər birinə ölkəmizin ictimai-siyasi həyatında yeni-yeni uğurlar arzulayıram.

## Milli Məclisin deputatı Nəriman Əliyev:

-Hər bir xalqın, toplumun öz müstəqilliyi uğrunda mübarizələr tarixi vardır. Azərbaycanın da özünəməxsus tarixi keçmişi həmin dövr hadisələrinə qiymət vermək üçün də mənbə rolunu oynayır. 1990-cı illərin əvvəlləri Azərbaycanda tarixin başqa bir şəkildə təkrarını xatırladırdı. XX əsrin əvvəlində birinci dəfə müstəqilliyin əldə edilməsindən sonra baş verən hadisələr, qısa müddətdə müstəqilliyə yaranan təhlükə, daxildən və xaricdən olan təhdidlər və təzyiqlər əsrin sonunda yenidən təkrarlanırdı. Bu dövrlər arasında paralellər apardıqda, əlbəttə, hadisələrin təsviri üst-üstə düşsə də, nəticələr fərqli idi. Çünki birinci müstəqillik dövründə əldə etdiyimiz nailiyyətləri qorumaq üçün Azərbaycanın yetərli gücü, müttəfiqləri yox idi, ölkə daxilində birlik əldə etmək mümkün deyildi, xarici faktorlar isə vəziyyəti daha da gərginləşdirirdi. Bu vəziyyətdən çıxmaq üçün Azərbaycanın özünün birləşdirici, bütün qüvvələri səfərbər edəcək, onları əsas məqsədə, hədəfə yönəldə biləcək bir faktoru yox idisə,



əsrin sonunda baş verən hadisələrdə biz artıq bu amilin mövcudluğunu xüsusi şəkildə vurğulamalıyıq.

Həmin dövrdə Azərbaycan xalqının düşünən beyinləri, öndə gedən ziyalıları bu çətin durumdan çıxmağın yeganə yolunu Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışında görürdülər. Çünki çoxsaylı siyasi hərəkatların, ən müxtəlif məqsədlərə və hədəflərə yönəlmiş axınların dağıdıcı fəaliyyətinin qarşısını yalnız müdrik siyasət, möhkəm iradə, güclü şəxsiyyət arafında xalqın birliyi ala bilərdi. İlk növbədə, Heydər Əliyevin siyasi proseslərə təsir göstərməsi, ictimai-siyasi hərəkatı düzgün istiqamətə yönəltməsi üçün bir siyasi təşkilata ehtiyac duyulurdu. 1992-ci ilin ağır günlərində, xüsusən də, həmin ilin payızına doğru hadisələrin gərginləşdiyi bir məqamda Heydər Əliyevə edilən çoxsaylı müraciətlərdən sonra Azərbaycanda yeni bir siyasi təşkilatın yaradılması işinə başlandı. Qısa müddətdə görülən işlər öz nəticəsini verdi və 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi. Ölkənin o zamankı rəhbərliyi tərəfindən Azərbaycanın demokratik inkişaf yoluna qədəm qoyduğu iddia edilsə də, bu konfrans Bakıda yox, məhz Naxçıvanda keçirildi, çünki onun Bakıda keçirilməsinin mümkün olmaması üçün o zamankı AXC-Müsavat cütlüyü bütün "addımları" atmışdı. Bütün bunlara baxmayaraq, ölkənin hər yerindən nümayəndələrin iştirakı ilə baş tutan konfransda çox ciddi qərarlar qəbul olundu, partiyanın Nizamnaməsi, Proqramı, rəhbər strukturu, seçkili orqanları formalaşdı, qarşıda dayanan vəzifələri müəyyənləşdirildi və Heydər Əliyev partiyanın Sədri seçildi. YAP Azərbaycandakı ictimai-siyasi təşkilatlar içərisində aparıcı bir gücə çevrildi. Biz, eyni zamanda, vaxtilə Ulu Öndərə müraciət edənlərə təşəkkür edirik. Çünki bu addımı atmaqla azad Azərbaycanı yarada, xalqı arxanızca apara bildiniz.

Bu tarixi qərar Azərbaycanın təməlli inkişafının əsasını qoymuş oldu. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İham Əliyevin son 15 ildə möhkəm təmələ əsaslanaraq, həyata keçirilən təkmil islahatlar Azərbaycanın daha möhtəşəm uğurlara atmasını şərtləndirir. Modernləşmə, yeniləşmə dövlət siyasətinin ana xəttini təşkil edir. Əlbəttə ki, bütün bunlar, məhz YAP-ın siyasi baxışlarının məntiqi nəticəsidir. Çünki qazanılan hər bir uğurda 26 illik keşməkeşli yol keçmiş YAP-ın siyasəti dövlət siyasəti olaraq, Prezident İlham Əliyev Cənablarının müdrik və mütərəqqi siyasəti olaraq qiymətləndirilməkdədir.

İqtisadi və siyasi islahatların vəhdətliyi fonunda Azərbaycana beynəlxalq münasibət daha da yüksəlir. Azərbaycan demokratik ölkə kimi nüfuz qazanıb. İnsan hüquqlarının müdafiəsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində göstərilən səylərin miqyası genişdir. Əsas olan mövcud reallıqlarımızın ölkə və dünya ictimaiyyətinə yüksək səviyyədə, heç bir qərəzə yol vermədən çatdırmaqdır. Bu halda, mətbuatın üzərinə düşən məsuliyyətin böyüklüyü daha aydın görünür.

Əlbəttə ki, Ulu Öndər Heydər Əliyev yolunun Azərbaycana qazandırdığı uğurları bir yazı çərçivəsində əhatə etmək mümkünsüzdür. Lakin son olaraq onu qeyd etmək istərdim ki, 26 ildir qət edilən bu şərəf və qürurlu yol müasir, müstəqil Azərbaycanın bugünkü reallıqlarıdır. O reallıqlar ki, Azərbaycan bu gün regionun aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvüdür. Azərbaycan bu gerçəkliklərə əsaslanaraq, yeni-yeni hədəflərə doğru uğurlara doğru inamla addımlayır.

## Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin Səhiyyə Komitəsinin üzvü Sədaqət Vəliyeva:

-Hər bir Azərbaycan vətəndaşı ölkəmizin taleyində Yeni Azərbaycan Partiyasının oynadığı mühüm rolu, keçdiyi tarixi və çətin yollarını görür və yüksək qiymətləndirir. Belə ki, Yeni Azərbaycan Partiyasının yaranması, bilavasitə Ulu Öndər Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır. Təbii ki, Heydər Əliyevin hakimiyyətə gəlişi, Azərbaycana rəhbərlik etməsi, 1990-cı illərin əvvəllərində ölkəmizi üzləşdiyi fəlakətlərdən xilas etməsi, yaşadığımız bu tarix Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə əlaqədardır. Yeni Azərbaycan Partiyası Ulu Öndərimiz Heydər Əliyev siyasətinin Azərbaycanda həyata keçirilməsində iştirak edib. Bu tarixin 1992-ci ilin 21 noyabrında Naxçıvanda həkk edilməsi xalqımızın qurtuluşu reallığı oldu.

Ən çətin və məşəqqətli yollar keçmiş YAP xalqın partiyasına çevrilməklə, sözün əsl mənasında, bu günkü qüdrətini sübuta yetirmişdir. Bu qüdrətin əsasında dayanan daha bir amil Ümummilli Lider Heydər Əliyev siyasətinin məntiqi nəticəsi dayanır. Bu siyasət olmasa idi, əlbəttə ki, müstəqilliyimiz də itiriləcəkdi. Onun qətiyyəti və dönməzliyi sayəsində bizlərin hər birimiz müasir, müstəqil Azərbaycanın inkişaf və tərəqqisində iştirak etməkdəyik.

Bu gün də Yeni Azərbaycan Partiyası öz şərəfli tarixi missiyasını yerinə yetirməkdədir. YAP Heydər Əliyev siyasətinin, Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi islahatların gerçəkliyə çevrilməsində, ölkəmizin qüdrətinin artırılmasında yaxından iştirak edən təşkilatdır. Bu partiya ölkəmizin siyasi palitrasına yeni baxışlar gətirib. YAP yeni siyasi fəlsəfəyə, yeni baxışlara əsasən yaranaraq, siyasi meydana qədəm qoyub, tez bir zamanda böyük və nüfuzlu siyasi təş-



kilata çevrilib. Partiyaya Heydər Əliyev kimi görkəmli şəxsiyyətin rəhbərlik etməsi cəmiyyətin bütün təbəqələrinin bu siyasi təşkilatın ətrafında birləşməsinə səbəb oldu. Ona görə də, bizlər vurğulayırıq: Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın müasir tarixinin ən möhtəşəm hadisələrindən biridir.

O da bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın tarixində bu günə qədər heç bir siyasi təşkilata müyəssər olmamış yüksəkliyə və ictimai nüfuza sahibdir. Azərbaycan tarixində heç zaman bu qədər üzvü özündə birləşdirən siyasi təşkilat olmayıb. Yeni Azərbaycan Partiyasının keçdiyi yol şərəfli bir tarix olduğu kimi, onun bundan sonrakı taleyi də kifayət qədər uğurlu olacaq. Yeni Azərbaycan Partiyası 26 ildir iqtidardadır. Həyata keçirilən strateji islahatlar, Azərbaycanın uğurlu inkişafı bundan sonra uzun illər də Yeni Azərbaycan Partiyasının iqtidar statusunun saxlanması üçün çox ciddi bir etibar və əsas olacaq. YAP yeganə partiya idi ki, yaranandan altı ay sonra onun rəhbəri hakimiyyətə gəldi. Bu, xalqın istəyi idi. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev hazırda Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Bu uğurlarda, bu nailiyyətlərdə, bilavasitə Yeni Azərbaycan Partiyasının rolunun olması danılmaz həqiqətdir. Hər bir Yeni Azərbaycan Partiyasının üzvünü partiyamızın 26-cı ildönümü münasibəti ilə təbrik edir, fəaliyyətlərində davamlı uğurlar arzulayıram.

***Rövşən NURƏDDİNOĞLU***

# Yeni Azərbaycan Partiyası - xalqın partiyası

*Bölgələrdə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbirlər keçirilib*

## Ismayıllı

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatında partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdən öncə, iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra tədbirdə Yeni Azərbaycan Partiyasının yaradılmasından ötən 26 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.



Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Ümummilli Lider Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərindən danışıb. O, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsinin dahi rəhbər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində, məhz Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır.

Daha sonra YAP İsmayıllı rayon təşkilatının sədr müavini Məhərrəm Əhmədov, Zaur Muradov və İvanovka bələdiyyəsinin sədri Oleq Radayev, dövlət qulluğu veteranı Valeh Salehov çıxış edərək, YAP-ın təsis olunmasından, həmçinin, Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının ilk iclaslarından bəhs edib. Ümummilli Lider Heydər Əliyevin siyasi strategiyası və Cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində, bu gün ölkəmizin çoxsaylı uğurlar qazanmasında Yeni Azərbaycan Partiyasının əvəzsiz rolu olduğu vurğulanıb.

YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin sədri Qönçə Ağazadə, YAP İsmayıllı rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova tədbirdə çıxış edərək, partiyanın qadınların inkişafı, cəmiyyətdəki yeri və rolunun artırılması istiqamətindəki səylərindən danışıb. YAP-ın qadınların ictimai-siyasi proseslərdə daha yaxından iştirak etməsi üçün bir sıra uğurlu layihələrə imza atdığını və bu mənada, YAP İsmayıllı rayon təşkilatının nailiyyətlərinin də danılmaz olduğunu söyləyiblər.

Tədbirdə çıxış edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov Ümummilli Lider Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi ilə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın mühüm uğurlar qazandığını diqqətə çatdırıb. Dünyada müxtəlif böhran vəziyyətinin hökm sürməsinə baxmayaraq, ölkə iqtisadiyyatının sürətli inkişafı, ictimai-siyasi sabitliyin davamlı bərqərar olunması dövlət başçısı İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir. Bu siyasətin davamı ölkəmizi daha da işıqlı gələcəyə aparacaq və dünyadakı nüfuzunu möhkəmləndirəcək. Tədbirin sonunda YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə partiya üzvlük vəsiqəsi təqdim edilib. Rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına və partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə bir qrup partiya fəalı Fəxri Fərmanla təltif olunub.

## Quba

Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü ilə əlaqədar Quba rayon Heydər Əliyev Mərkəzində konfrans keçirilib. Tədbir iştirakçıları, öncə, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov açaraq bildirib ki, partiya son dərəcə ağır və keşməkeşli günlərdə, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranmışdır: "Azərbaycanın taleyini düşünən ziyalılar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə təsis konfransı keçirildi. Konfrans Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Dahi Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı".





Tədbirdə Quba rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, rayon təşkilatı idarə heyətinin üzvü, Heydər Əliyev Mərkəzinin direktoru Elza Orucova "Yeni Azərbaycan Partiyası Dövlətçilik və Azərbaycançılıq ənənələri", rayon təşkilatı qadınlar şurasının sədri Aysel Şeydayeva "Yeni Azərbaycan Partiyasında Azərbaycan qadınının rolu", rayon təşkilatı gənclər birliyinin üzvü Zeynəb Ağayeva "Yeni Azərbaycan Partiyası və Azərbaycan gəncliyi" mövzusunda çıxış ediblər. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalı fəxri fərmanla təltif edilmiş və YAP sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqəsi təqdim edilmişdir.

## AĞDAM



YAP Ağdam rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü münasibəti ilə tədbir keçirib. Tədbirdə rayon təşkilatının şura üzvləri və partiya fəalları Ulu Öndər Heydər Əliyevin abidəsi önünəgül dəstələri düzərək, xatirəsini böyük ehtiramla yad ediblər.

Tədbiri YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev açaraq, tədbir iştirakçılarını partiyanın 26-cı ildönümü münasibəti ilə təbrik edib. Rayon təşkilatının sədri Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında Yeni Azərbaycan Partiyasının rolu və xidmətlərindən danışıb: "Ölkədə ictimai-siyasi proseslərin kifayət qədər mürəkkəb şəraitdə cərəyan etdiyi bir vaxtda Dahi Şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də təsis edilən Yeni Azərbaycan Partiyası qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən aparıcı siyasi qüvvəyə çevrilib. Tarixi zərurətdən yaranan partiya, ötən illər ərzində, xalqa xidmət missiyasını şərəflə yerinə yetirib. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı düşdüyü siyasi, iqtisadi, sosial və mənəvi böhrandan xilas edən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmiz, qısa zaman kəsiyində, böyük inkişafa nail olub. Bu gün dövlət başçısı, partiyanın Sədri Prezident İlham Əliyev iqtisadi, siyasi, mədəni və digər sahələrdə ölkəmizin inkişafı istiqamətində mühüm işlər görür". Tədbirdə rayon təşkilatının şura üzvü Hüseyn Bayramov, partiyanın veteranı Qədulla Səfərov çıxış edib. Tədbirdə Yeni Azərbaycan Partiyasınayeni üzv qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib. Tədbirin sonunda tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə təbrik məktubu ünvanlanıb.

## NAFTALAN



Naftalan şəhər icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının birgətəşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümü münasibəti ilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək,xatirəsini ehtiramla yad ediblər.

Naftalan şəhər Heydər Əliyev Mərkəzində davam etdirilən tədbirdə şəhər icra hakimiyyətinin başçısı Rövşən İbrahimov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır. O, qeyd edib ki, Yeni Azərbaycan Partiyasınınyaradıcısı, Ulu Öndər Heydər Əliyevin siyasi kursu bu gün Onun layiqli davamçısı Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədriİlham Əliyev uğurla davam etdirir.

Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev çıxışındaYeni Azərbaycan Partiyasının yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Ümummilli Lider Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərdən danışıb: "Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində, məhz Ulu Öndər Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır".

Tədbirdə YAP Naftalan şəhər təşkilatı gənclər birliyinin sədri Aynurə Novruzova çıxış edərək, qeyd edib ki, bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, nəinki ölkənin, regionun aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolu, keyfiyyət və kəmiyyət baxımından gündən-günə zənginləşir. YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların da mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Tədbirdə bir qrup YAP üzvləri Yeni Azərbyacan Partiyasi Naftalan şəhər təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə partiyanın 26-cı ildönümü münasibətilə Fəxri Fərmanla təltif ediliblər.

# “Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya”

***Hər bir ölkədə insanların təhlükəsiz, əmin-amanlıq şəraitində, yüksək rifah halında yaşaması güclü dövlətin ən mühüm şərtidir. Bu mənada müstəqil, gənc Azərbaycan dövləti dünyanın bir çox inkişaf etmiş dövlətləri ilə müqayisə edilə bilər. Dövlətimizin ildən-ilə artan sosialyönümlü büdcəsi də bunu söyləməyə imkan verir. Təsadüfi deyildir ki, gələn ilin büdcəsində Azərbaycanda social xərclər təxminən 8 milyard manat səviyyəsində nəzərdə tutulub. Bu da imkan verir ki, Azərbaycan dövləti cəmiyyətin bütün kateqoriyalarından olan insanların maddi rifah halını və yüksək yaşayışını təmin etsinlər. Bu kontekstdə, əlbəttə ki, əlillər istisna təşkil etmir.***



Bu gün Azərbaycanda 620 minə yaxın əlil və sağlamlıq imkanları məhdud olan insanlar var. Əlillərin, o cümlədən, sağlamlıq imkanları məhdud olanların sosial problemlərinin həllinə dövlət büdcəsindən ayrılan vəsaitin hər il artırılması Azərbaycan dövlətinin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının təzahürüdür.

Hər bir ölkədə əlilliyin miqyası bir sıra faktorlarla - sağlamlıq vəziyyəti, səhiyyə sisteminin inkişafı, sosial-iqtisadi inkişaf, hərbi münaqişələr və s. səbəblərlə bağlıdır. Bu baxımdan, ölkəmizdə əlilliyin dinamikasına bir sıra amillər də öz təsirini göstərib. Belə ki, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində, 50 mindən çox insan işgəncələrə məruz qalıb və sağlamlığını itirərək, əlil olub. Bundan əlavə, anadangəlmə qüsurlar, müəyyən xəstəliklər, istehsalatda baş verən bədbəxt hadisələr də əlilliyə səbəb olur.

Qeyd edək ki, XX əsrin sonlarında öz müstəqilliyini bərpa etmiş və hüquqi-demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycan Respublikasında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əhalinin bütün kateqoriyalarının, o cümlədən, əlilliyi olan şəxslərin hüquqlarının təmini və müdafiəsi istiqamətində bir sıra mütərəqqi islahatlar həyata keçirilib. Bu gün həmin siyasət Cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməkdədir. Ölkə rəhbərliyi tərəfindən həyata keçirilmiş hüquqi islahatların məntiqi nəticəsi olaraq, dövlətimizin konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqlarının təmini sahəsində mühüm əhəmiyyətli qanunvericilik aktları qəbul edilib. Bu sırada əlilliyi olan şəxslərin sosial hüquqlarının müdafiəsi də mühüm yer tutur.

Xatırladaq ki, Azərbaycan dövləti 13 dekabr 2006-cı il tarixində “Əlillərin hüquqları haqqında” Beynəlxalq Konvensiyanın Fakültətiv Protokoluna qoşulmaq barəsində qanun da qəbul edib.Məhz həmin qanunda insana aid olan bütün hüquq və azadlıqların qorunması nəzərdə tutulur və təbii ki, Azərbaycan da həmin sənədi imzalamaqla bu öhdəlikləri öz üzərinə götürmüş olub. Yeri gəlmişkən, beynəlxalq Konvensiyanın 1-ci bəndində insanların, o cümlədən, əlillərin hüquqları təsbit olunub. Bu Konvensiyanın məqsədi bütün əlillər tərəfindən insan hüquqlarının və əsas azadlıqlarının tam, bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də, onların ləyaqətinə hörmət göstərilməsini həvəsləndirməkdən ibarətdir. Konvensiyada göstərilir ki, əlillər kateqoriyasına müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir. Sənədin 3-cü maddəsində isə ümumi prinsiplər göstərilib: a) şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması; b) ayrı-seçkiliyə yol verilməməsi; c) cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma; d) əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; e) imkanların bərabərliyi; f) müyəssərlik; g) kişi və qadınların bərabərliyi; h) əlil uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət. Konvensiyanın 5-ci maddəsinə əsasən, Azərbaycan dövləti əlil vətəndaşların digərlərindən fərqləndirilməsi üçün öz üzərinə öhdəlik götürüb. Burada, xüsusilə, əlil qadınlar və uşaqlar haqqında ayrıca maddələr qeyd olunub. Bu da, ona görə nəzərdə tutulub ki, məhz qadınlar və uşaqlar, belə demək mümkündürsə, zəif təbəqə olduğundan, daha çox ayrıseçkiliyə və istismara məruz qalır. Ona görə də, Azərbaycan dövləti bu kimi halların baş verməməsi üçün beynəlxalq qanunlarda nəzərdə tutulduğu kimi, öz vətəndaşlarının hüquqlarını çox ciddi qoruyur.

Bu kontekstdə ölkə Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planında (MFP), eyni zamanda, 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında əlilliyi olan şəxslərlə bağlı müddəaların olması dövlətimizin bu qəbildən olan təbəqəsinin hüquqlarının təmin edilməsini daim diqqət mərkəzində saxladığını göstərir. Proqrama uyğun olaraq, bu qəbildən olan şəxslərin sağlamlığının mühafizəsi və tibbi bərpası, onların xarici ölkələrdə reabilitasiyasına şəraitin yaradılması, xroniki xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi xidmətin yaxşılaşdırılması, texniki-bərpa və nəqliyyat vasitələri ilə təmin edilməsi, sanatoriya-kurort müalicələrinin təşkili, bədən tərbiyəsi və idmana cəlb edilməsi, sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı onlara texniki yardım göstərilməsi, əlillər üçün ixtisaslaşdırılmış internat evlərinin və bərpa mərkəzlərinin saxlanılması xərcləri dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilmiş və bir sıra təkliflər irəli sürülüb. Bununla yanaşı, Ombudsman Aparatının Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlığı sayəsində sərbəst hərəkət etmək imkanı olmayan şəxslərin, xüsusilə də, uşaqların əlil arabası ilə təmin olunması, şəkərli diabet və digər xəstəlikləri olan uşaqlara pulsuz tibbi xidmətin göstərilməsi, pulsuz diaqnostikanın keçirilməsi və dərmanlarla təmin olunması istiqamətində xeyli işlər görülüb.

Xüsusi qayğıya ehtiyacı olan, sağlımlıq imkanları məhdud insanların digər problemləri kimi, onların təhsili də dövlətin daim diqqətindədir. Belə ki, Azərbaycanda inklüziv təhsilin həyata keçirilməsi sahəsində müvafiq qanunvericilik bazasının yaradılması təşəbbüsləri hələ 90-cı illərin sonlarından irəli sürülüb. 2001-ci ildə isə “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, qanunun icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müxtəlif təyinatlı 9 qərar qəbul olunub, eyni zamanda, Təhsil Nazirliyi tərəfindən “Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar proqram (2005-2009-cu illər)” hazırlanıb və Azərbaycan hökumətinin 2005-ci il 3 fevral tarixli qərarı ilə təsdiq edilib. Proqrama uyğun olaraq, beynəlxalq təşkilatlarla birgə həyata keçirilən 3 inklüziv təhsil layihəsi, ümumilikdə, 30-dək təhsil müəssisəsini, 100-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə edib. Bundan əlavə, Nərimanov rayonundakı psixonevroloji uşaq evi, Şağandakı əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 3 saylı internat evi, Saraydakı 7 saylı internat evi, Buzovnadakı 9 saylı internat evi, Türkan qəsəbəsindəki nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat məktəbi təmir olunmuş və yenidən qurulmuşdur. Ölkə başçısının bu istiqamətdə fəaliyyətinin nəticəsi olaraq, 2006-cı il 29 mart tarixli sərəncamla təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramında (2006-2015-ci illər) sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli təlim-tərbiyə müəssisələrinin bir hissəsinin reabilitasiya mərkəzlərinə çevrilməsi, ailələrə verilmiş belə uşaqların təhsilə cəlb olunması, onların səhiyyə və reabilitasiya xidmətləri ilə təmin edilməsi və s. məsələlərin həlli müvafiq qurumlar qarşısında bir vəzifə olaraq qoyulur.

Qəbul olunan dövlət proqramlarının həyata keçirilməsində dövlət və qeyri-dövlət təşkilatları mühüm rol oynayır. Əlillərin cəmiyyətə inteqrasiyası, onların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi, əməklərinin qiymətləndirilməsi istiqamətində Heydər Əliyev Fondu böyük işlər görür. Belə ki, 2005-ci ilin dekabrında Kor və zəif görən uşaqlar üçün İKT-yə çıxışın təmin edilməsi layihəsi üzrə BMT ilə əməkdaşlıq sazişi imzalanıb. Layihənin 1-ci mərhələsində gözdən əlil insanlar üçün rəqəmsal fərqin aradan qaldırılması məqsədilə informasiya-kommunikasiya texnologiyalarına ehtiyac müəyyən olunub, 2-ci mərhələdə model informasiya-kommunikasiya texnologiyaları sinfi yaradılıb. Bu kateqoriyadan olan insanlar üçün yaradılan kitabxana və təlim mərkəzində onların audio materiallar və Brayl şriftli kitablardan istifadə imkanlarının təmin olunması işi də layihənin 3-cü mərhələsi kimi başa çatıb. 2007-ci ilin oktyabrında fondun təqdimatı ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Azərbaycandan 15 nəfər əlil ixtiraçının mükafatlandırılması da Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Hazırda əlilliyi olan insanlar və onların ailə üzvləri də nəzərə alınarsa, Yer kürəsində təqribən iki milyarda yaxın insan əlilliyin doğurduğu problemlərdən əziyyət çəkir. Azərbaycan dövləti isə əlilliyin acılarını yaşayan vətəndaşlarını taleyin ümidinə buraxmır, onların cəmiyyətə inteqrasiyası istiqamətində tədbirlər görür. Ölkə Konstitusiyasına hər bir vətəndaşın, o cümlədən, əlilliyi olan, fiziki cəhətdən qüsurlu insanların hüquq və vəzifələri də aydın göstərilir. Hüquqi dövlət olan Azərbaycan dövləti insan və vətəndaş hüquqlarının təmin edilməsi məsələsini daim diqqət mərkəzində saxlayır.

***Tünzalə İsmayılova,***
***“Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün”***

# ZƏHMƏTDƏN YOĞRULAN HƏYAT SALNAMƏSİ: ABDULƏLİ ABDULLAYEV-80

***Zamanın sınağından keçmiş insanlar şəxsiyyət zirvəsinə yüksələ bilirlər. Bu zirvədə dayanmağı bacarmağın özü də bir fədakarlıqdır. Bunu bacaranlar təkcə valideynlərinin övladı olmurlar, onlar bir elin-obanın sevimlisinə çevrilirlər. Belə insanlar xoşbəxtdirlər. Eyni məntiqlə 80 illik yubileyini qeyd edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ağsaqqal müəllimi Abduləli Abdullayev də xoşbəxt insandır. Eyni zamanda, şanslı insandır. Birincisi, o səbəbdən ki, Azərbaycanın dilbər guşələrindən biri olan Lənkəran rayonunun Liman qəsəbəsində dünyaya göz açıbdır. Mülayim subtropik iqlim onun şəxsiyyətinin formalaşmasına təsirsiz qalmayıbdır. İkincisi, valideynləri elmə və təhsilə böyük diqqət ayıran insanlar olublar.***



Elə bu səbəbdən də, Abduləli müəllim Lənkəran rayonunun təhsil sahəsində qabaqcıl mövqelərə malik 1№-li orta məktəbdə yüksək qiymətlərlə təhsil almağa müvəffəq olmuşdur. Hələ orta məktəb illərində gənc Abduləli Abdullayev detektiv mövzularda kitablar oxuyur, filmlərə baxır və gələcək həyat yolunun konturlarını beynində cızmağa başlayırdı. Dəyişməz uşaqlıq istəyi və həvəsi gənc Abduləlinin peşə seçimində öz həlledici rolunu oynadı. O, SSRİ Daxili İşlər Nazirliyinin Akademiyasına qəbul olundu. Daha əvvəl isə Abduləli müəllim hərbi xidmətdən sonra öz taleyini Qazaxıstan Respublikası ilə bağladı. 10 il ərzində Qazaxıstanda hərbi xidmət keçdi, sonra orta ixtisas milis məktəbində müdavim oldu və daxili işlər orqanlarında xidmətə başladı. Bu xidmət Abduləli müəllimin bütün gələcək həyatını müəyyən edən amillərdən biri olmuşdur. Məhz bu xidmət zamanı "Milis əlaçısı" döş nişanı, "Sovet milisinin 50 illiyi" medalı ilə təltif edilmişdir. Abduləli müəllim bir sıra digər mükafatlara da layiq görülmüşdür. Biz onlar haqqında bir qədər sonra danışacağıq.

Daha sonra 1965-ci ildə Abduləli müəllim öz vətəninə - Azərbaycana qayıdır və daxili işlər orqanlarında kifayət qədər səmərəli olacaq fəaliyyətə başlayır.

1965-1969-cu illərdə Salyan RDİŞ-nin rəis müavini, daha sonra rəis vəzifələrində işləmişdir. 1969-1973-cü illərdə Kürdəmir rayonunda həmin vəzifədə çalışmışdır.

1974-1978-ci illərdə indiki Oğuz rayonunda, 1978-1980-ci illərdə Tovuz, 1980-1981-ci illərdə Xaçmaz rayonlarında daxili işlər şöbələrinin rəisi olmuşdur.

Elə bu qısa xatırlatmadan məlum olur ki, Abduləli müəllimin həyat yolu, demək olar ki, Azərbaycanın bütün coğrafiyasını əhatə edibdir. O, ölkənin şimal və cənub zonasında, qərb zonasında Lənkəran, Mərkəzi Aran rayonlarında çalışmış və o zamanın ifadəsi ilə desək, milis rəisi vəzifələrində işləmişdir. İctimaiyyətlə davranış və öz işinin öhdəsindən gəlmək qabiliyyəti, dövlətə sədaqəti, ona səbəb olmuşdur ki, 1981-ci ildə Abduləli müəllim vəzifədə daha da irəli çəkilərək, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrlar idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Bu müddətdə, o, ölkəmizdə Daxili İşlər Orqanlarının şəxsi heyətinin formalaşmasında kifayət qədər böyük səylər göstərmişdir. 1984-1987-ci illərdə Abduləli müəllim SSRİ Daxili İşlər Nazirliyinin Xüsusi Milis Məktəbinin rəisi vəzifəsinə irəli çəkilmişdir. Mərdəkan qəsəbəsində yerləşən SSRİ əhəmiyyətli bu xüsusi təhsil ocağına Krasnodar vilayətindən, Qafqazın 5 muxtar respublikalarından, Ermənistandan və Azərbaycandan uz tutan gənclər yüksək müsabiqə şərtləri daxilində imtahandan müvafiq bal topladıqdan sonra qəbul olunurdular. Hazırda məktəbin bazasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası yaradılmışdır. Heç şübhəsiz, bu təyinat Abduləli müəllimin sonrakı həyatını müəyyənləşdirən amilinə çevrilir və o özünü artıq həm daxili işlər orqanlarında xidməti, həm də gələcək üçün kadrların hazırlanması işi ilə bağlayır. Daha sonra, 1987-1992-ci illərdə Daxili İşlər Nazirliyində Xidmət üzrə rəis vəzifəsində çalışmışdır.

1. Eyni məntiqlə Abduləli müəllimin şərəfli həyat yolunun daha bir neçə epizodunu da xatırlatmaq yerinə düşər.O, 1974-1976-cı illərdə Moskva şəhərində SSRİ Daxili İşlər Nazirliyinin Milis Akademiyasında sovet respublikaları üçün rəhbər kadrlar hazırlayan fakültəsində təhsil alır. Onu da qeyd edək ki, bu fakültə elit statusa malik idi və onun məzunları öz intellekti və dünyagörüşü etibarilə seçilirdilər. Abduləli müəllimin elmə olan böyük sevgisi 1986-1988-ci illərdə həmin akademiyanın aspiranturasında təhsil almasına səbəb oldu və o, müvəffəqiyyətlə dissertasiya müdafiə edərək, hüquq elmlər namizədi elmi dərəcəsini aldı. 1992-ci ildə ölkəmizdə yaşanan xaos və anarxiya mühiti daxili işlər orqanlarından da yan keçmədi. O zamankı "xalq cəbhəsi-müsavat" cütlüyünün antimilli siyasəti peşəkarların diletantlarla əvəzlənməsi ilə müşayiət olunurdu. Bu acı reallıqda Abduləli Abdullayev 1992-ci ildə daxili xidmət polkovnik rütbəsində daxili işlər orqanlarından istefaya getmək məcburiyyətində qaldı. Sonra 5 il ərzində Azərbaycan Respublikasının Ticarət Nazirliyində Hüquq şöbəsinin müdiri vəzifəsində çalışır. Bütün bu məsul vəzifələrdə çalışdığı illərdə, o öz fəaliyyətində situativ deyil, məhz elmi yanaşmalara istinad etmişdir. Başqa sözlə, elm və təhsilə bağlılıq Abduləli müəllimin daxili dünyasının mühüm amilinə çevrilmişdi. Elə bu daxili tələbatın təsiri altında Abduləli müəllim 1997-2002-ci illərdə Milli Aviasiya Akademiyasında baş müəllim vəzifəsində pedaqoji fəaliyyətlə məşğul olur, 2002-ci ildən bu günə qədər isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) dosent vəzifəsində çalışır. Çoxsaylı elmi əsərlərin müəllifi olan (Terrorizm və beynəlxalq cinayətkarlıq. Monoqrafiya. Bakı: BDU nəşriyyatı, 2003; İnzibati hüquq. I-II hissə. Dərs vəsaiti. Bakı: Qanun, 2006; İnzibati hüquq. III hissə. Dövlət orqanlarında idarəetmə. Dərs vəsaiti. Bakı: Qanun, 2007; Abdullayev A.M.Nağıyev F.T.İnzibati hüquq. Dərslik. Bakı, Qanun, 2008; Beynəlxalq terrorizm: onunla cinayəthüquqi və kriminoloji mübarizənin aktual problemləri. Monoqrafiya. Bakı: Qanun, 2006; Beynəlxalq terrorizmin xronologiyası və kriminoloji aspekti. Monoqrafiya. Bakı. İsmayıl. 2006; Abdullayev A.M., Nağıyev F.T. Müqayisəli inzibati hüquq (Fransa inzibati hüququ). Dərs vəsaiti. Bakı. 2014 (yenidən işlənmiş və geniş şəkildə kitab halına salınmışdır); Abdullayev A.M., Əliyev E. Administrativnıy prosess. Dərslik. Bakı, Uniprint nəşriyyatı, 2012 və s.) Abduləli müəllim DİA tələbə və professor-müəllim heyyətininn dərin hörmətini qazanmışdır.

Abduləli müəllim əmək fəaliyyətinin hər iki mərhələsində, yəni həm hüquq-mühafizə orqanlarında işləyərkən, həm də elmi-pedaqoji fəaliyyəti dövründə 30-dan artıq təltif və mükafat almışdır.

Onların bəzilərini xatırlatmaq yerinə düşər.

1976-cı ildə - SSRİ-nin Daxili İşlər Nazirliyinin Əməkdar işçisi fəxri adı; 1978-ci ildə - Sərrast nişançı medalı; 1980 - "Əla xidmətə görə" döş nişanı; 1982 - Milis əlaçısı, Moskva şəhərində ictimai asayişin qorunmasında xidmətlərinə görə; 1986 - "Şərəf nişanı" ordeni; 1988 - "Əmək veteranı" medalı; 2010-2012-ci illərdə Təhsil Nazirliyinin Fəxri Fərmanı; 2014-cü ildə isə Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı; 2012-ci ildə - "Qızıl qələm" mükafatı laureatı; 2012-ci ildə - "İlin vətənpərvər alimi; 2012/2013 -"İlin vətənpərvər oğlu" Müstəqil Milli Mükafat; 2013-cü ildə Dövlət İdarəçilik Akademiyasında keçirilən sorğu nəticəsində Abduləli müəllimin rəhbərliyi ilə müəlliflər kollektivinin hazırladığı "İnzibati Xətalar Məcəlləsinin Kommentariyası" adlı əsər "İlin kitabı" adına layiq görülmüşdür.

Yubilyar ölkəmizin ictimai-siyasi həyatında da fəal vətəndaş mövqeyi ilə seçilir. O, doğulduğu cənub bölgəsinin ictimaiyyəti adından separatçı və ermənilərin əlində alətə çevrilmiş milli xəyanətkar Əlikram Hümbətovun işğalçı Ermənistanın paytaxtına səfərini kəskin tənqid edən "Kosmopolitin millətçilik arzuları" adlı məqalə ilə "Azərbaycan" qəzetində çıxış etmiş və bu "sapı özümüzdən olan balta"nın dönük simasını ifşa etmişdir.

Abduləli müəllimin "Azərbaycan" qəzetinin 8 oktyabr 2013-cü il nömrəsində çap edilmiş "Vicdan susanda, yaxud ailənin belə üz döndərdiyi xəyanətkar" adlı məqalə həmin milli dönüyün əməllərini ifşa edən əsl vətənpərvərlik mövqeyidir.

Onu da, xüsusi olaraq vurğulayaq ki, Abduləli müəllim təkcə hüquq-mühafizə orqanlarının əməkdaşı və yaxud DİA-nın dosenti deyil, o, eyni zamanda, keçən əsrin 60-70-ci illərində Azərbaycanda bir sıra bədii-publisistik və sənədli əsərlərin qəhrəmanı olunmuşdur. Belə ki, Şəmşad Rzanın "Açıq alın", Əlisahib Məmmədovun "İz..." əsərlərinin qəhrəmanı, məhz Abduləli müəllimdir. O, burada həm bir vətəndaş kimi, həm milis əməkdaşı kimi özünün bütün müsbət keyfiyyətləri ilə xarakterizə edilir. Bu qəbildən daha bir əsər 1981-ci ildə işıq üzü görmüş Şəmşad Rzanın "Gecə zənglər"i romanıdır. Bu əsərin də baş qəhrəmanı, məhz o zamanlar cəsur milis kapitanı olan Abduləli Abdullayevdir.

İşıqlı dünyaya göz açmaqla insan statusu qazanmaq hər kəsə nəsib olur, lakin İNSANLIQ ZİRVƏSİNİ fəth etmək hər kəsə nəsib olmur. Abduləli müəllimin ən böyük qazancı İNSANLIQ zirvəsini fəth etməsidir. O, elə bir zirvədir ki, onu fəth edən bir daha oradan aşağı enə bilmir. Məhz bizim əzizimiz Abduləli müəllim o zirvənin daimi və əbədi sakini olaraq özünə məxsus bir şəxsiyyətdir. Anadan olmasının 80-ci ilinin tamam olması münasibətilə Abduləli müəllimi təbrik edir, ona uzun ömür, can sağlığı, tutduğu yolda uğurlar arzulayıram.

***Elman Nəsirov,***
***Azərbaycan Respublikası Milli Məclisinin üzvü,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru,***
***siyasi elmlər doktoru, professor***

## Azərbaycan xalçalarının Cənubi Koreyada ilk sərgisi açılacaq

Azərbaycanın Seuldakı səfirliyi və Koreya Fondunun birgə təşkilatçılığı və "Azərxalça" ASC-nin dəstəyi ilə Azərbaycan xalçalarının Cənubi Koreyada ilk sərgisi açılacaq. Səfirlikdən SİA bildiriblər ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan "Azərbaycan mirvariləri - xalçalar" adlı sərgi noyabrın 26-dan dekabrın 19-dək davam edəcək.




## Tokioda görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illiyi qeyd ediləcək

Görkəmli Azərbaycan bəstəkarı, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, akademik Qara Qarayevin 100 illik yubileyi haqqında Azərbaycan Prezidentinin Sərəncamına əsasən cari ildə həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda dahi bəstəkarın xatirəsinə həsr olunmuş təntənəli tədbirlər təşkil olunur.

AZƏRTAC xəbər verir ki, dahi bəstəkarın 100 illiyinə həsr olunmuş növbəti yubiley konserti noyabrın 25-də Tokionun "Dojin-Kyokay" zalında keçiriləcək. Konsertin təşkilatçısı, Yaponiyada fəaliyyət göstərən "Musiqi Evi"nin rəhbəri, azərbaycanlı pianoçu Gülnarə Səfərova agentliyimizin Yaponiyadakı xüsusi müxbirinə bildirib ki, konsertin təşkilində məqsəd yapon musiqisevərləri qədim və zəngin Azərbaycan musiqisi, xüsusən də tanınmış Azərbaycan bəstəkarı Qara Qarayev haqqında məlumatlandırmaqdır.




## Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində növbəti sərgi açılıb

Bakıda, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzində (RİMM) "Rusiya bu gün" layihəsi çərçivəsində növbəti sərgi açılıb. Sərgidə moskvalı fotoqraf Dmitri Qujelya öz işlərini təqdim edib. RİMM-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müəllif sərgini "Rusiya haqqında süjetlər" adlandırıb. Ekspozisiyada Rusiya Federasiyasının təbii müxtəlifliyini və zənginliyini parlaq əks etdirən fotolar təqdim olunub. "Rossotrudniçestvo" agentliyinin Azərbaycan nümayəndəliyinin rəhbəri Valentin Denisov sərginin açılışında çıxış edib. Bakı Slavyan Universitetinin tələbələri sərginin ilk qonaqları olub.



# Alternativ AXCP yenə dilləndi: partiya Əli Kərimlinin deyil!

*Partiya funksioneri: "Onun müəyyən qurumlar və media tərəfindən "AXCP sədri" kimi təqdim edilməsi doğru deyil"*

***2015-ci ildə AXCP növbəti dəfə parçalandıqdan, yeni Əli Kərimlinin müavini Razi Nurullayevin partiyada avtoritar idarəçilik, özbaşınalıq və rəhbərliyin şəxsi mənfəətlər güdməsi ətrafındakı ittihamlarının ardınca verdiyi istefasından sonra, bu siyasi təşkilatın adına iddialı olduğunu bəyan etdi. Hətta həmin ilin 18 oktyabrında R.Nurullayevin tərəfinə keçmiş cəbhəçilər etimad qurultayı keçirərək, partiyanın yenidən formalaşdırıldığını bəyan etdilər.***

## Hər iki tərəf qurultayda qəbul olunmuş sənədləri qeydiyyat üçün Ədliyyə Nazirliyinə təqdim etsə də...

Maraqlısı budur ki, həmin il azlıqda qalan Ə.Kərimli tərəfdarları da qurultay keçirdilər. Etirazlara baxmayaraq, o, saxta yollarla özünü yenidən sədr seçdirdi. Hətta Kərimli cinahında namizədlikləri irəli sürənlər belə, sonradan buna etiraz edərək, ya özləri AXCP sıralarını tərk etdilər, ya da təşkilat sıralarından qovuldular.

Bütün bunlardan sonra cərəyan edən hadisələr fonunda R.Nurullayevin alternativ AXCP-yə sədr seçilməsi təşkilat ətrafında növbəti problemləri üzə çıxardı. Misal üçün, hər iki tərəf qurultayda qəbul olunmuş sənədləri qeydiyyat üçün Ədliyyə Nazirliyinə təqdim edib. Amma nazirlik bir partiya adına iki iddiaçı olduğu üçün, heç bir tərəfi rəsmi olaraq, qeydiyyata almayıb. Yəni bu gün nə R.Nurullayev, nə də Ə.Kərimli Ədliyyə Nazirliyi tərəfindən, rəsmi olaraq, AXCP sədri kimi tanınır.

## Vüsal Qarayev: "Ümumiyyətlə, bu, qeyri-ciddidir. Anlamaq mümkün deyil"

Sözügedən məsələnin daha bir tərəfi R.Nurullayev tərəfdarlarının mətbuatda və s. hallarda AXCP-nin sədri kimi Ə.Kərimlinin adının göstərilməsi olub. Hətta bununla bağlı alternativ AXCP-nin funksioneri Vüsal Qarayev mətbuata açıqlamasında deyib ki, Ə.Kərimlinin müəyyən qurumlar və media tərəfindən "AXCP sədri" kimi təqdim edilməsi doğru deyil: "Ümumiyyətlə, bu, qeyri-ciddidir. Anlamaq mümkün deyil" deyə bildirən R.Nurullayevin tərəfdarı, həmçinin, bildirib ki, noyabrın 17-də Milli Dirçəliş Günündən istifadə edərək, küçəyə çıxıb icazəsiz aksiya keçirməyə cəhd edən Ə.Kərimlini AXCP sədri kimi təqdim etmək doğru deyil. Bu baxımdan, "hələ ki, heç bir tərəf rəsmən AXCP kimi qeydiyyata alınmayıb" deyə xatırladan V.Qarayev mübahisəli işin hələ də məhkəmədə olması və yekun qərarın verilmədiyini bildirib.



Nəticə olaraq, hələ də mübahisə çərçivəsindən çıxmayan bu məsələdə tərəflərin hər biri AXCP adına iddialı olduqlarını bəyan edirlər və bu iddialar, məhz məhkəmənin qərarından sonra tam şəkildə aydınlaşacaq.

**Rövşən RƏSULOV**

## "YARAT"da növbəti mühazirə memarlıq sənətinə həsr ediləcək




Dekabrın 4-də "YARAT" Müasir İncəsənət Mərkəzində "Şəhər bir orqanizm kimi" mövzusunda mühazirə dinləniləcək. AZƏRTAC xəbər verir ki, mühazirə "DRA&U" şirkətinin baş memarı və təsisçisi Corcio Pini və həmin şirkətin baş direktoru Conatan Arbibin iştirakı ilə gerçəkləşəcək. Mühazirədə şəhərsalma və müasir cəmiyyət arasında yaranan kommunikasiya problemlərindən, memarlıq sənətinin əhəmiyyətindən danışılacaq. "DRA&U" şirkətinin fəlsəfəsi - həyatda güc və rahatlıq təmin edən, təşkilatın konsepsiyasına uyğun gözəlliyin təşviqidir. Hazırda şirkət Avropa, Şimali Afrika, Asiya və Cənubi Amerikanı əhatə edən bir çox ölkədə fəaliyyət göstərir. Tədbir ingilis dilində Azərbaycan dilinə sinxron tərcümə ilə keçiriləcək.

## Misirdə 12 terrorçu məhv edilib

Misirin təhlükəsizlik qüvvələri Sinay yarımadasının şimalındakı Əl-Ariş şəhərində 12 terrorçunu zərərsizləşdiriblər. AZƏRTAC xəbər verir ki, terrorçu ünsürlərin Əl-Ariş şəhərində yerləşən fermaların birində yerləşməsi barədə operativ məlumat alan təhlükəsizlik qüvvələri antiterror əməliyyatı həyata keçiriblər. Atışma nəticəsində 12 terrorçu məhv edilib.

## Macarıstanın Azərbaycandakı səfiri Qubaya səfər edib



Macarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyinin rəhbərlik etdiyi nümayəndə heyəti Qubada olub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nümayəndə heyəti ilə Quba Rayon İcra Hakimiyyətində keçirilən görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub. Rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev qonağa Quba-nın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Səfir Viktor Szederkenyi Macarıstan-Azərbaycan münasibətlərinin intensiv inkişaf etdiyini bildirərək, ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin qurulduğunu diqqətə çatdırıb. Görüşdən sonra qonaqlar Quba "ASAN həyat" Kompleksi, "Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı mallarının istehsalı zavodu və Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış olublar.

## Ərdoğan vəliəhd şahzadə ilə görüşdən imtina edib



Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan "G20" ("Böyük səkkizlik") sammitində iştirak üçün Argentinaya səfəri zamanı Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla görüşməyəcəyini bəyan edib. SİA-nın verdiyi xəbərə görə, bu barədə Türkiyənin "A Haber" telekanalı məlumat yayıb.

Qeyd edək ki, bir müddət əvvəl Ərdoğanın mətbuat katibi İbrahim Kalın 30 noyabr - 1 dekabr tarixlərində Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək "G20" ("Böyük səkkizlik") sammiti çərçivəsində Türkiyə prezidenti ilə Səudiyyənin vəliəhd şahzadəsi arasında görüşün baş tuta biləcəyini demişdi. "Prezidentin proqramına baxırıq, belə bir görüş ola bilər", - Kalın bildirmişdi.



## Tarix satqınları heç vaxt bağışlamır

**RƏFİQƏ**

***Bəzən yaşından və başından asılı olmayaraq, layiq olmayanlara elə "tərif" deyirlər ki, necə deyərlər, "lap ətin tökülür". Qoca professor Cəmil Həsənlinin "maşennik" Əli Kərimlini dahi dünya liderləri ilə "bir səviyyədə tutduğu" və tərifi bir qəpiyə olan fikirləri nə qədər gülünş və ikrah doğurur. Bir də C.Həsənli kimi özgənin yalağı ilə dolananlar var ki... Bir də, görünür, qulağına səs gəlib- deyirlər Əli Kərimli "davay dosvidaniya" deyəcək. Bəlkə elə buna görə də, başlayıb satqın AXCP sədrinə tərif deməklə yanaşı, onun müdafiəsinə qalxıb. Əgər oxucularımızın xatirindədirsə, bu, o C.Həsənlidir ki, AXCP sədri Ə.Kərimlini Albert Eynşteynlə müqayisə edirdi. Deyir hər fəslin öz "qəhrəman"ları olduğu kimi, AXCP-də də hər dövrün öz "öncül"ləri var.***

Əgər oxucularımızın yadındadırsa, hazırda Ə.Kərimlinin qurduğu tora düşdüyündən həbsdə olan Gözəl Bayramlı AXCP sədrini tərifləyib onu Nelson Mandella ilə müqayisə etmişdir. Ancaq bir məqamı da demək lap yerinə düşər. Ən gülməlisi isə AXCP sədri müavini Nurəddin Məmmədlinin rusiyalı müxalifətçi Nemtsovun ölümündən sonra Ə.Kərimlini onunla müqayisə etməsi idi: "Nemtsov Əli bəyə qibtə edirdi". İndi də C.Həsənli onu A.Eynşteynlə bir tərəziyə qoyur. Bax, bu yerdə deyirlər ki, lap "dilim ağzımda qurudu". Ay Cəmil bəy, heç olmasa, belə bir iddia ilə çıxış edəndə, öz yazdığın "Ağ ləkələrin qara kölgəsi" çızma-qaranı gözünün qabağına gətirəydin. Adıçəkilənlərin hamısı siyasətdə, elmdə uğur qazanmış, bütün dünyanın tanıdığı şəxslərdilər. Bəs Ə.Kərimli kimdir? Ə.Kərimli: xəyanət, qisaslar, intriqalar toplusu. Onu yemləyən əli dişləyən, adətən, onu təpikləyənin çəkməsini yalayır. AXCP sədri Ə.Kərimli və onun "gerilyeros-banditos" dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsalar da, həmişə sözləri əməllərinə zidd olub. Bu, o Ə.Kərimlidir ki, o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, "maliyyə dəstəsi" və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yenə vədlər verib, amma sonda hamını aldatmağa çalışıb.

Bu yerdə bir məqamı da xatırlatmaq istərdim: bilirsiniz ki, 21 noyabr YAP-ın təsis olunduğu və yaradıldığı gündür. 1992-ci ildə YAP Naxçıvanda təsis olunandan sonra Bakıdakı cəbhəçilər necə təlaşa düşüblərsə, ailə üzvlərinin də YAP-çı olacaqlarından qorxub, onları da xüsusi nəzarətləri altında saxlayırdılar. O vaxt İsgəndər Həmidov bütün təşkilatlara tapşırırmış ki, kim YAP-a iclas keçirmək üçün yer versə, həmin adam həbs olunacaq. Maraqlısı budur ki, İ.Həmidov bunu efirdə deyirmiş. Tarixə bax! İ.Həmidov bu gün üzərində "Yeni Azərbaycan Partiyası" yazılan binaların qarşısından boynubükülü ötüb keçir. Düzgün mövqedə dayanıb, düzgün liderin yanında olmaq lazım idi! Xalqa güllə atmaqla, çayxanada "sabiq"lərlə birlikdə tum çırtlamağın nəticəsi belə olmalı idi. Necə ki, bu gündəsiniz... Bir də istər C.Həsənlinin, istər digərlərinin bənzətmələri biabırçılıqdır. Ancaq bu biabırçılığa adət etmiş müxalifətin satqınlar "sülaləsi" deyilənlərdən heç vaxt ibrət dərsi ala bilməz və bilməyəcəklər də! Ancaq bir həqiqət isə odur ki, heç bir tərif, müqayisə cinayətləri ört-basdır etməyəcək və bir bezin qırağı olanlar bilmələdirlər ki, xaricdəki rejissorların əmrlərini yerinə yetirən Ə.Kərimlini acı tale gözləyir: nədən ki, tarix satqınları heç vaxt bağışlamır, zamanla tale isə bəlalərinə qarşı amansız olur.

# İlqar Məmmədov-Əli Kərimli qarşıdurması yeni mərhələdə

## Bu dəfə "REAL" AXCP-ni hədəfə alıb

***"REAL" partiyasının sədri İlqar Məmmədov hələ həbsdə olarkən, daha doğru desək, 2018-ci ilin prezident seçkisindən öncə, sosial şəbəkələrdə ona qarşı kampaniya düzənləyən AXCP sədri Əli Kərimli bu dəfə özü qarşı tərəfin siyasi hücumlarına məruz qalıb. Məsələ ondadır ki, "əvəz-əvəz" prinsipi ilə qarşıdurmalara gedən tərəflər bir-birlərində hər an səhv tutmağa və bu səhv üzərindən zərbələr endirməyə çalışırlar. Bu baxımdan, indi də, görünür, növbə "REAL"-ın olub.***

### AXCP-nin ittihamı: "REAL" nəyə görə Əli Kərimlinin "həbs əziyyətinə" göz yumdu?"

Beləliklə, növbəti qarşıdurmaya səbəb Əli Kərimlinin şənbə günü icazəsiz aksiya səbəbindən saxlanılıb, iki gündən sonra azadlığa buraxılması olub. Yəni Kərimlinin tərəfdarları sədrlərinin iki günlük çəkdiyi "həbs əziyyəti" ilə bağlı "REAL" tərəfdarlarından gözlədikləri münasibəti görmədiklərini və guya bundan "incidiklərini" sərgiləyiblər. Hətta bir az da irəliyə gedərək, sosial şəbəkələrdə açılan müzakirələrdə "REAL" rəhbəri İ.Məmmədov həbsdə olarkən Ə.Kərimlinin sona qədər onu müdafiə etdiyi belə, "REAL"çıların üzlərinə vurulub. Nəticədə, "REAL"-ın cavabı gecikməyib və cəbhəçilərin minnətli ifadələrinə qarşı sərt mövqe göstərilib.

### "REAL"-ın cavabı: "İlqar Məmmədov həbs olunandan yalnız bir il sonra Əli Kərimli onun məhkəməsində iştirak etdi"

AXCP-yə ittihamlardan biri də budur ki, Əli Kərimli məqsədli şəkildə belə şou düzəldib və bununla gündəmə gəlib. Məsələ ilə bağlı mətbuata açıqlama verən "REAL"-ın icraçı katibi Natiq Cəfərli AXCP-nin minnət və ittihamlarına cavab olaraq qeyd edib ki, İ.Məmmədov Ə.Kərimlinin saxlanılması ilə bağlı sosial şəbəkələrdə öz fikirlərini bildirib. Lakin İ.Məmmədovun həbsi zamanı Ə.Kərimli onun məhkəməsinə, məhz bir il sonra qatılıb. Məhz bu amili önə sürən "REAL" partiyasının funksioneri AXCP üzvləri tərəfindən səsləndirilən ittihamların heç bir əsasının olmadığını deyib və bəyanatın verilməməsində heç bir qəbahətin olmadığını bildirib. "Burada heç bir problem görmürəm" Cəfərli deyib.

Maraqlı məqamlardan biri də budur ki, "REAL" təmsilçisi müxalifətin radikalizmlə bağlı hər hansı bir uğur əldə edə bilməyəcəyini də deyib və qeyd edib ki, onlar bu kimi siyasi fəaliyyəti AXCP-dən fərqli olaraq rədd edirlər. Əbəs deyil ki, N.Cəfərli Ə.Kərimlinin gündəmdə qalması üçün bu planı "REAL"izə etmək fikrinə düşdüyünü bildirib: "Siyasəti qorxulu bir sənət, iş, həbslər, təqiblər kimi təqdim etməyi artıq 25 ildir görürük. Bu cür hallar xalqın siyasətdən daha da kənarda qalmalarına səbəb olur... Hazırda müxalifətdəki abı-hava kimlərəsə sərf etsə də, "REAL"-a əsla, sərf edə bilməz".

Göründüyü kimi, bu qarşıdurmanın davam edəcəyi hələ bir neçə ay öncədən də proqnozlaşdırılırdı. Sadəcə, tərəflər bir müddət kənara çəkilərək, yeni ittihamlar üzərində "baş sındırıblar". Ancaq bu kimi "başsındırmalar" düşərgənin özünün çanağında çatlayıb.

**Rövşən RƏSULOV**

# Satqın satqını müdafiə edər

## Qərbə satılan xəyanət simvolları

***Belə bir deyim var: taylı-taylını tapar. Bu gün müxalifət düşərgəsində satqınçılıq baş alıb getməkdədir. Dövlətə-xalqa xəyanət edənlərin isə sayı-hesabı yoxdur. Bu gün "müxalifətçi" adı ilə o qədər iblislər, şeytanlar qrantlara görə məsləkini və qeyrətini satırlar. Bəlkə də bu sözümə görə kimlərsə məni qınaya bilər, ancaq 30 ilə yaxındır ki, dağıdıcı müxalifətin "anası", "dədəsi" sayılan İsa Qəmbəri, Əli Kərimli və onların yedəkçiləri rolunda çıxış edən Cəmil Həsənli, Leyla Yunus, Arif Hacılı... satılıb satan görmüşük. Bir də bu satqınlar anlamırlar ki, müxalifətdə olmaq satqınçılıq etmək deyil. Bəs bu gün bu kəsləri müdafiə edənlər kimlərdir?***



### Bənzər xəyanətlər-bənzər sifətlər

Siyasi proseslərdə heç nə təsadüfi olmur. Bu, zaman-zaman deyilmiş və praktiki olaraq, təsdiqini tapmış məsələdir. Bu baxımdan, o da mümkün deyil ki, heç zaman siyasi-ictimai proseslərdə iştirakçı olmayan, mübarizə meydanlarında görünməyən ünsürlərin və mühacir həyatı keçirənlərin Azərbaycan dövlətinə qarşı hər hansı iddiası olmasın. Özü də o "fəaliyyətə" ki, burada əsas prioritet Azərbaycanın insanına, dəyərlərinə xas olmayan bir tərzdə söyüş, ağır təhqirlər "mübarizə" metodu seçilir və faktiki olaraq, "mənəvi terror" törədilir. Onlar üçün bu fəaliyyətdə Azərbaycanın düşmənləri - erməni lobbisi ilə eyni "ələ oynamaq" da açıq-aydın şəkildə prioritetlərdən biridir. Bu gün Ə.Kərimli kimi satqının müdafiəsinə qalxan Orduxan Teymurxanlı, Elşad Abdullayev, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Vidadi İsgəndərli və bu kimi siyasət rüşeymlərinin Azərbaycana qarşı sosial şəbəkələrdə böhtan dolu çıxışlar etmələrinə tapşırıq verilənlər ermənilərin qarşısında quyruq bulayanlardır. Ancaq Avropa ölkələrinə sığınan söyüş və təhqiri, tərbiyəsiz ifadələri "siyasi fəaliyyət növü" sayan bu satqın parazitlər heç vaxt heç nəyə nail ola bilməyəcəklər və bu, mümkün də deyil. Çünki onlar hadisələrin məcrasında idarə olunan fiqurlardır. İdarə olunan isə, əsla, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. Ona görə də, o xəyalların üstünü toz basır. Və yaratdıqları müxtəlif siyasiləşmiş qeyri-hökumət təşkilatlarından və KİV-lərdən ibarət dayaq nöqtələrini, "5-ci kolon"u formalaşdırmağa nail olan həmin dairələrin böhtanlarını gerçək kimi qəbul etdirmək mexanizmləri də çox sadədir. Azərbaycanı ölkə və dünya ictimaiyyətinə "dəhşətli obrazda" təqdim etmək üçün satın alınan Vətən xainləri V.İsgəndərli, O.Teymurxan, T.Sadıqlı, xarakterinə uyğun psixologiyasını soyadı ilə doğruldan Həbib Müntəzir, Qurban Məmmədov, Qənimət Zahidov kimi ünsürlər də hər zaman olub.

### Haqq nazilər, amma üzülməz

Müxalifətin satqınlar "sülaləsi"ni ancaq satqınları müdafiə etməlidir. Bu, heç təəccüb də doğurmur. Elə götürək erməni lobbisinin antimilli maşası - olan Q.Zahidovu. Bu parazitin də xəmiri satqınlıqla yoğrulub. Erməni lobbisinin çirkli pulları, antimilli ünsürlərin "lideri" Ə.Kərimlinin dirijorluğu ilə "fəallaşan" Qənimət Zahidov də "Meydan" TV-nin icraçı direktoru Emin Milli, onların ətrafındakı fərari tör-töküntülərlə birləşərək bu günlərdə AXCP sədri Ə.Kərimlinin müdafiəsinə qalxıblar. Bax, bu yerlə özünü ələ ala bilmirsən: kor olmuş gözlərinə və kar olmuş qulaqlarına qışqırıb-bağırmaq istəyirsən: erməni lobbisinin antimilli maşası, reallıqları gör! Görməyən gözlər görsün, kar qulaqlar eşitsin. Bu gün şəhid ailələrinin problemi dövlətin diqqət mərkəzindədir. Elə bu, Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasıyla bağlı verdiyi Fərman dövlətin bu kateqoriyadan olan insanlara diqqət və qayğısının əyani sübutudur.

### Özgənin yalı ilə bəslənənlər...

Maraqlısı odur ki, xaricdə məskunlaşan bu satqınlar özgənin yalı ilə bəslənilməyə adət ediblər. Ancaq üzdəniraqlar unudurlar ki, tutduqları düzgün yol deyil. Müxalfətçilik belə olmur. Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan belələri nədənsə, hər şeydən əvvəl, vətəndaşlıq borclarını "yaddan çıxarırlar". Bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tulapayı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

# "Nar-ın sərfəli internet qiymətləri müştəri loyallığı indeksini artırır

Müstəqil araşdırma şirkəti tərəfindən aparılmış sorğunun nəticələrinə əsasən, "Nar" mobil internet istifadəçilərinin sayında və müştəri məmnuniyyətində sürətli artım müşahidə olunur. Son 10 ayda müştəri loyallığı indeksi 20%, internet məmnuniyyəti indeksi isə 23% artıb. Abunəçilərin fikrinə əsasən, "Nar" ən yaxşı internet qiymətləri təklif edən mobil operatordur.

"Nar" ölkə ərazisi boyunca 3G, 4G və LTE-A şəbəkəsini genişləndirməklə, abunəçilərə sərfəli qiymətə yüksək keyfiyyətli mobil internet paketlərini təqdim etməklə müştəri loyallığı indeksinin artımına müvəffəq olub. Bundan başqa, paytaxtla yanaşı, ölkənin regionlarına göstərdiyi diqqətilə seçilən "Nar", bölgələrdə ən ucuz mobil rabitə xidmətini təqdim edib və bununla da paytaxt sakinləri ilə yanaşı, bölgə abunəçilərinin loyallığını qazanıb. Araşdırmanın nəticələrinə əsasən, mobil internetin keyfiyyəti, müştərilərin şəbəkəni öz dost və ailə üzvləri arasında istifadə etməsi, eləcə də tarif və qiymətlərin müxtəlifliyi və əlverişliliyi amillərinə görə "Nar" müştəri loyallığı indeksi yüksək nəticə göstərir.

Bundan başqa, nar.az internet səhifəsində olan şəxsi kabinetlər, eyni zamanda "Facebook", "Twitter" və digər sosial şəbəkələr üzərindən abunəçilərə göstərilən yüksək xidmətlər də müştəri məmnuniyyətini artırıb.

Ötən ilin 2-ci rübündə keçirilən mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticə göstərib. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnol0ogiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir (işğal olumuş ərazilər istisna olmaqla) və 7300-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Minlərlə Bakcell abunəçisi "SMSRadar" xidmətindən faydalanır




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin abunəçiləri arasında böyük rəğbət qazanmış "SMSRadar" xidmətinə artıq 65 min nəfərdən çox insan qoşulub.

Abunəçilərin rahatlığının və yollarda təhlükəsizliyin təmin olunması məqsədilə istifadəyə verilmiş "SMSRadar" xidməti avtomobil idarə edənlər üçün çox faydalıdır. Aylıq abunə haqqı cəmi 1 AZN olan bu xidmət sayəsində abunəçilər yol hərəkəti qaydalarını pozduqda qayda pozuntusunun vaxtı və cərimməsi haqqında ətraflı məlumatı SMS vasitəsilə almaq imkanına malikdirlər. Böyük populyarlıq qazanmış bu innovativ və əlverişli xidmətdən faydalanmaq üçün istənilən tarifdən istifadə edən Bakcell abunəçisi idarə etdiyi nəqliyyat vasitəsinin nömrəsini (misal: 00-XX-000) SMS vasitəsilə 5666 qısa nömrəsinə yollamalıdır. Sürət həddini aşmış nəqliyyat vasitəsi barədə məlumat abunəçilərə dərhal, yol hərəkəti qaydalarının digər pozuntuları barədə məlumat isə müvafiq sistemdə qeyd olunandan sonra göndərilir. Xidmət barədə ətraflı məlumat https://www.bakcell.com/az/sms-radar və yaxud www.smsradar.az internet səhifələrindən əldə oluna bilər.

Qeyd edək ki, SMSRadar mobil əlavəsi yükləmə sayı üzrə Azərbaycanda 8-ci yeri tutur. Həmin mobil əlavəni Appstore və ya PlayMarket vasitəsilə yüklənən abunəçilər cərimməyə aid foto və videoları da izləmək imkanına malikdir. Mobil əlavəni birbaşa yükləmək üçün aşağıdakı linkdən istifadə edin: http://SMSRadar.az/app

İnnovasiya sahəsində özünü doğrultmuş lider olan Bakcell şirkəti müasir mobil rabitə xidmətlərinin istifadəçiləri üçün innovativ, olduqca əlverişli və maraqlı xidmətlər göstərməyə davam edəcək.

# YAP-ın insan hüquq və azadlıqlarının müdafiəsində rolu

***Çoxpartiyalılıq sistemində Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının xüsusi yeri və rolu vardır. Ulu Öndərin sayəsində YAP xalqı öz arxasınca aparmağı bacaran iqtidar partiyasına çevrildi.***

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Nizamnaməsinin məqsəd və vəzifələri maddələrində liberal-demokratik ideyaları geniş istifadə edilmişdir. Orada deyilir: "Yeni Azərbaycan Partiyasının ali məqsədi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik - hüquqi və dünyəvi dövlətin qurulması, sabit və sosial yönümlü iqtisadiyyatın yaradılması, irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əminamanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması və insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir".

- Bazar iqtisadiyyatının və azad sahibkarlığın inkişafı yolu ilə istehsalın yüksəldilməsinə, vətəndaşların rifah halının təmin olunmasına, ölkədə fəal sosial siyasətin həyata keçirilməsinə nail olmaq;

- çoxpartiyalı sistemə, demokratik hakimiyyətə və siyasi plüralizmə əsaslanan dövlət idarəçiliyi və vətəndaş cəmiyyətini inkişaf etdirmək;

- qanunların və digər normativ-hüquqi aktların layihələrinin müstəqil ictimai ekspertizasını keçirmək, onların təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

- şəxsiyyətin hüquq və azadlıqlarının, şərəf və ləyaqətinin hərtərəfli müdafiəsinə, vətəndaşlar arasında qarşılıqlı anlaşmanın, inamın və humanitar əlaqələrin inkişafına kömək ermək;

- millətlərin, etnik qrupların, mədəniyyətlərin və dinlərin azad inkişafına nail olmaq;

- Azərbaycan dövlət müstəqilliyinin, milli təhlükəsizliyinin qorunması mövqeyindən çıxış etmək, bütün dünyada sülhün, dövlətlər, xalqlar arasında əməkdaşlığın inkişafına və Azərbaycanın dünya birliyində layiqli təmsil olunmasına çalışmaq, beynəlxalq normalara hörmətlə yanaşmaq, dünya sivilizasiyasının nailiyyətlərindən geniş istifadə etmək.

YAP-ın Nizamnaməsində öz əksini tapmış bu liberal-demokratik ideyalar sonralar Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyasında (1995-ci il) geniş istifadə edilmişdir.

Millət vəkili, YAP-ın İdarə Heyətinin üzvü Siyavuş Novruzov göstərir ki, Azərbaycanda təkpartiyalılıqdan çoxpartiyalılığa keçidin təmin olunmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir: "Azərbaycanda siyasi sistemin formalaşması üçün Heydər Əliyevin yürütdüyü bu siyasət öz bəhrəsini verdi. Artıq bu gün Azərbaycanın siyasi həyatında sağ-sol təmayüllü və mərkəzçi olmaq etibarı ilə 40-dan artıq siyasi partiya fəaliyyət göstərir və rəqabət aparır. Bu halda, təkpartiyalılığa qayıdışdan danışmaq mümkün deyil. Çeşidli ideologiyalara xidmət göstərən ayrı-ayrı partiyalar cəmiyyətdə müəyyən mövqe qazandıqdan sonra qarışıq seçki sistemindən istifadə olunmasının əhəmiyyəti yox idi. Məhz buna görə də, 2002-ci il avqust ayının 24-də Azərbaycan Respublikasının Konstitusiyasına bəzi əlavə və dəyişikliklər edilməsi ilə bağlı keçirilən referendumda qarışıq seçki sistemindən majoritar seçki sisteminə keçildi".

Siyavuş Novruzov, YAP istisna olmaqla, digər partiyaların sosial bazasının zəif olmasını və fəaliyyət dairəsinin məhdud olmasını xüsusi qeyd edir: "Bu partiyaların təşkilatlanma dərəcəsi, əhali arasındakı nüfuzu bir-birindən kəskin şəkildə fərqlənir. Bəzi partiyalar, yalnız paytaxt Bakıda və paytaxta yaxın bir-iki rayonda yerli strukturlara malikdir. Bəzi siyasi partiyaların yalnız Bakıda fəaliyyət göstərdiyini söyləmək olar. Bəzi partiyaların yalnız sədri və kağız üzərində adı mövcuddur. Yalnız Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrində yerli təşkilatları var. 500 mindən artıq adamı öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası kütlələri öz arxasınca aparmağa qadir olan yeganə siyasi partiyadır. Çünki bu, partiyanın yaradıcısı Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatına müxalifət partiyası kimi gəlsə də, qısa bir müddətdən sonra iqtidar partiyası oldu. Yeni Azərbaycan Partiyasının əldə etdiyi bütün nailiyyətlər bu böyük şəxsiyyətin - Heydər Əliyevin adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının III qurultayı partiya sıralarının monolitliyini aydın şəkildə göstərdi. Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatında müxtəlif funksiyaları yerinə yetirir. Bunlardan birincisi və ən başlıcası, odur ki, Yeni Azərbaycan Partiyası dövlət və xalq arasındakı qarşılıqlı əlaqəni həyata keçirir, bu əlaqəni tənzimləyir. Ayrı-ayrı sosial qrupların maraqlarını aydınlaşdıraraq və Yeni Azərbaycan Partiyası onları elə şəkildə ümumiləşdirir ki, dövlət orqanlarının fəaliyyətində bu cəhətlər öz əksini tapır.

Yarandığı gündən bəri Yeni Azərbaycan Partiyası cəmiyyətin inkişafının strategiyasını müəyyənləşdirməyə cəhd edir, müxtəlif proqramlar hazırlayır, dövlətin və hökumətin seçdiyi kursun düzgünlüyünü Azərbaycan əhalisinə çatdırmaqda müstəsna rol oynayır. Bundan əlavə, Yeni Azərbaycan Partiyası partiya liderlərinin, peşəkar siyasətçilərin, partiya ekspertlərinin və analitiklərinin formalaşmasında əhəmiyyətli işlər görür. Ümumən, Yeni Azərbaycan Partiyası bütün parametrlər üzrə Azərbaycandakı digər partiyalara örnək ola bilər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaratmaqla, Azərbaycanın siyasi sisteminin formalaşmasına böyük töhfə verdi".

Ulu Öndərin siyasi varisi, YAP-ın Sədri, ölkə Prezidenti İlham Əliyev Azərbaycanın demokratik cəmiyyətdə əsas amilə çevrilmiş çoxpartiyalılıq sistemini daha da inkişaf etdirir, ölkəmizin demokratik imicini dünyada daha yüksəkliklərə qaldırır.

Yarandığı gündən bəri Yeni Azərbaycan Partiyası cəmiyyətin inkişafının strategiyasını müəyyənləşdirməyə cəhd edir, müxtəlif proqramlar hazırlayır, dövlətin və hökumətin seçdiyi kursun düzgünlüyünü Azərbaycan əhalisinə çatdırmaqda müstəsna rol oynayır. Bundan əlavə, Yeni Azərbaycan Partiyası partiya liderlərinin, peşəkar siyasətçilərin, partiya ekspertlərinin və analitiklərinin formalaşmasında əhəmiyyətli işlər görür

Çoxpartiyalılıq partiyaların fəaliyyətinə heç bir məhdudiyyət qoymayaraq, siyasi hakimiyyətdə olan inhisarlaşmanın qarşısını almağa və hakimiyyətin etimad qazanmasına şərait yaradır. Eyni zamanda, o, cəmiyyətin siyasi qruplara bölünməsi prosesidir. Çoxpartiyalılığın da özünə məxsus olan müsbət və mənfi cəhətləri var. M.B.Barabanov yazır: "Müsbət cəhətləri, ilk növbədə, insanların qabiliyyətləri, maraqlarını vahid cəmdə birləşdirən bir vasitə olub digər maraq və qabiliyyətlərlə mübarizədə cəmiyyətin ən mühüm məsələlərinin həllinə yönəltməsidir. Bundan əlavə, çoxpartiyalılıq siyasi məsələlərin hərtərəfli işıqlandırılması, siyasi mövqeyin varlığı, bürokratçılığa sədd olan müxalifətin varlığı, partiyalara rəqiblər üzərində qələbə üçün lazım olan mütəşəkkilliyin, intizamın aşılanması, siyasi mübarizə üçün bacarıqlı insanların seçilməsi, xalqın iradəsinin təcəssümü olan siyasi quruluşun mövcudluğu üçün əhalinin səfərbər edilməsi, xalqın iradəsindən düzgün istifadə olunmasının bir vasitəsidir". Bütün bu müsbət xüsusiyyətlərlə yanaşı, onun mənfi cəhətləri də mövcuddur. Bu da - partiya üzvlərinin baxışlarının və hərəkətlərinin bir istiqamətdə sistematik yönəlməsinə; - partiyaların sayının çox olması xalqın mənafeyi və iradəsinin ifadə olunmasının çətinləşməsinə; - Koalisiyalı hökumətin yaranmasına və bununla hökumətdə qeyri-sabitliyin yaranmasına; - Qələbə xatirinə müxtəlif partiyaların kütlənin ən zərif hislərinə toxunmağa hazır olmalarına və nəticədə, ictimai mənəviyyatın korlanmasına; - Ara verməyən mübarizənin hökumətin qüvvəsini zəiflətməsinə, onun qüvvəsinin bir hissəsinin müxalifətlə mübarizəyə sərf edilməsinə səbəb olur." Təbii ki, bütün bunlar arzuolunmaz başqa nəticələrə də gətirib çıxara bilər. Məsələn, koalisiyalı hökumətin yaranması hökumətdə qeyri-sabitliyin yaranmasına səbəb olur. Çoxpartiyalılıq kimi bir sistemə keçmək zərurətinin yaranmasının əsas səbəbi, Azərbaycan Respublikasında demokratik idarəçiliyin bərqərar olması və bundan irəli gələn problemlərin aktuallıq kəsb etməsidir. Bunun Azərbaycan dövlətçiliyi üçün böyük əhəmiyyəti vardır. Siyasi sistemə keçidin özünəməxsus cəhətləri mövcuddur. Demokratik dəyərlərin inkişaf etdirilməsi, dərin sosial-siyasi və iqtisadi problemlərin həll edilməsi istiqamətində müvəffəqiyyətli islahatlar, ölkə vətəndaşlarının siyasi şüur və mədəniyyətinin yüksəldilməsi, iqtidar və müxalifət qüvvələrinin müxtəlif sahələr və problemlər üzrə əməkdaşlığı və ya rəqabəti, demokratik seçkilərin keçirilməsi və hakimiyyət bölgüsünün həyata keçirilməsi, məhz bütün bunları özünəməxsus cəhətlər hesab etmək olar. Ölkə artıq özünün ilk suveren konstitusiyasını qəbul etmiş, müstəqil dövlətlər arasında özünəməxsus yer tutmağa başlamışdır. Bu dövr daxildə gedən hakimiyyət mübarizəsi və siyasi qüvvələr arasında rəqabətlə səciyyələnir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 noyabr


## Trampın yeni "oyuncağı" 2020-ci ildə hazır olacaq

"The Drive" dərgisi ABŞ prezidenti üçün istehsal edilən "VH-92 Marine One" helikopterinin fotolarını yayımlayıb. "Sikorsky" firmasının məhsulu olan helikopterin 2020-ci ildə Ağ Evə təhvil verilməsi planlaşdırılıb. Yeni helikopterin texniki xüsusiyyətləri hələ ki, açıqlanmır. Dərgi helikopterin hələ ki, zərərsiz və təhlükəsiz eniş tələblərinə uymadığını yazıb. Helikopet enərkən ağırlığı altında qalan torpaq deformasiyaya uğrayır, pərvanələrin yaratdığı külək çəmən otları və yaxınlıqdakı bitkilərə zərər verir.

50 ildir ki, ABŞ prezidentləri üçün helikopterləri "Sikorsky" firması istehsal edir. Qeyd edək ki, hazırda ABŞ prezidenti Donlad Tramp "VH-3D" və "VH-60N" helikopterlərindən istifadə edir.

## Almaniyada iş yerində musiqi dinləmək olarmı?

Daimi və ya müvəqqəti yaşamaq üçün Avropaya köçmüş həmvətənlərin yeni ölkənin cəmiyyətinə tam inteqrasiya etmələrinə vaxt lazımdır. Məsələn, Almaniyaya gəlməmişdən əvvəl bu ölkənin ofislərində musiqi dinləmək qaydalarını immiqrantların və repatriantların heç də hamısı bilmir. Belə ki, musiqi zövqü fərqlənən rəis iş yerində radionu qadağan edə bilməz.

AZƏRTAC xəbər verir ki, Əmək Mübahisələri üzrə Almaniya Federal Məhkəməsinin bu yaxınlarda qəbul etdiyi qərarda belə deyilir. Bununla belə, narazılığını bildirən həmkarların və müştərilərin sayı çoxdursa, prinsip etibarilə musiqini kəsmək olar. Belə ki, halda musiqi dinləyən əməkdaş qulaqlıq taxmalıdır. Buna baxmayaraq, musiqiyə qadağa qoymaq mümkündür. Məsələn, musiqi diqqəti cəmləməyə mane olduqda və ya istehsalat səhvlərinə gətirib çıxardıqda istehsalat şurasının razılığı ilə onu dayandırmaq olar.

## Bakcell "ASAN Məktub"dan təşəkkürnamə alıb

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti "ASAN Məktub" təşəbbüsündə fəal iştirakına görə təşəkkürnamə ilə təltif olunub. "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır.



Noyabr ayının 21-də layihənin 3 yaşına həsr edilmiş xüsusi tədbir keçirilib. Tədbirdə bu təşəbbüsə öz dəstək göstərən tərəfdaşlara təşəkkürnamələr təqdim edilib. "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqları daim diqqət mərkəzində saxlayan Bakcell şirkəti davamlı şəkildə "ASAN Məktub" layihəsinə verdiyi dəstəyə görə təşəkkürnamə ilə təltif edilib.

"Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərib. "ASAN Məktub" layihəsi uşaqları sevindirmək və onların saf arzularını həyata keçirə bilmək bizim üçün bizə daha böyük imkan yaradıb", deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova bildirib. Uşaqların saf arzularını reallığa çevirən "ASAN Məktub" layihəsi www.asanmektub.az internet səhifəsi vasitəsilə 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların yazdığı məktublar sayta yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. Bakcell şirkəti layihəyə həmçinin mobil rabitə dəstəyi göstərir.


**ELAN**

Yusifov Ceyhun İsa oğlunun adına verilmiş Bakı ş. Suraxanı rayonu, Hövsan qəsəbəsi, Füzuli Bayramov prospekti, ev 22, 10, seriya MA 0074446 nömrəli mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.


**BAŞSAĞLIĞI**

Səbail rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru A.İsmayılov və əmək kollektivi, iş yoldaşları

**Novruzova Sevda Əsədulla qızının**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## Sərbəst güləşçilərimiz beynəlxalq turnirdə beş medal qazanıblar



İranın Gürgan şəhərində 15 yaşadək sərbəst güləşçilər arasında keçirilən beynəlxalq turnirdə Azərbaycan idmançıları beş medal qazanıblar.

AZƏRTAC xəbər verir ki, komanda yarışında ölkəmizi böyük məşqçi Namiq Quliyevin və məşqçi Mehman Nəcəfovun rəhbərliyi ilə Ruslan Abdullayev (38 kq), Emin Qocayev, Abdul Abdullayev (hər ikisi 41 kq), Mahir Məmmədov (44 kq), Ramik Heybətov, Nurəddin Novruzov (hər ikisi 48 kq), Ağanəzər Novruzov (52 kq), Məhəmmədəli Quliyev (57 kq), Namus Orucov (62 kq), Səttərxan Allahverdili (68 kq), Varis Mehdizadə (75 kq) və Xəlil Allahverdiyev (85 kq) təmsil ediblər.

Qrupda "İran-1" komandasına 3:7 hesabı ilə uduzan millimiz eyni hesabla Ermənistan yığmasına qalib gəlib. Bu nəticə ilə qrupda ikinci yeri tutan komandamız "İran-2" kollektivinə qalib gələrək (7:3) bürünc medala sahib olub. Fərdi birincilikdə Ruslan Abdullayev (38 kq), Ramik Heybətov (48 kq) və Məhəmmədəli Quliyev (57 kq) qızıl medal qazanıblar. Mahir Məmmədov (44 kq) isə gümüş medalla kifayətlənib. Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Zaur Şərifov təmsil edib.



## Cüdo üzrə Azərbaycan çempionatına yekun vurulub

Bakı İdman Sarayında keçirilən cüdo üzrə Azərbaycan çempionatına yekun vurulub. Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, yarışın sonuncu günündə kişilər və qadınlar kateqoriyasının hər birində dörd çəki dərəcəsi üzrə qalib və mükafatçılar müəyyənləşib. Orxan Səfərov (66 kq), Gültac Məmmədəliyeva (52 kq), Murad Fətiyev (81 kq), Diana Şoranova (63 kq), Süleyman Yaqubov (100 kq), Nuranə Muradova (78 kq), Günel Həsənli (70 kq) və Şahin Qəhrəmanov (+100 kq) bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adına layiq görülüblər. Mükafatçılara medallar, Azərbaycan Cüdo Federasiyasının diplomları, pul mükafatları təqdim olunub. Komanda hesabında ilk üç yeri tutan "Neftçi", "Dinamo" və "Cüdo 2012" klublarının baş məşqçilərinə də kubok, diplomlar verilib. Respublika çempionatı ilə əlaqədar ölkəmizə dəvət olunan Avropa Cüdo Birliyinin Hakimlər Komitəsinin rəhbəri Aleksandr Yatskeviç, qurumun komissarları Frank de Bur və Frank Oçko yarışın ən yaxşı üç hakimini müəyyənləşdirərək təltif ediblər.

## Məhəmməd Salah "Liverpul"dan ayrıla bilər



"Liverpul"un lideri Məhəmməd Salah klubunu dəyişə bilər". SİA-nın məlumatına görə, bunu Misir yığmasının baş məşqçisi Xavyer Aqirre deyib. Meksikalı mütəxəssis cari mövsümün sonunda ulduz futbolçunun "qırmızılar"dan ayrılacağını istisna etməyib: "Əgər "Liverpul" bu mövsümü titulsuz başa vursa, Salah oradan ayrılacaq. "Liverpul"un baş məşqçisi Yürgen Klopp da bunu gözəl dərk edir. Bu üzdən də komanda titul qazanmaq üçün bütün gücü ilə mübarizə aparır".Qeyd edək ki, Məhəmməd Salah "Liverpul"a ötən il "Roma"dan keçib.



## "Qalatasaray" Adebayoru transfer edəcək

Hücumçu axtaran "Qalatasaray" Emmanuel Adebayoru transfer etmək niyyətindədir. SİA-nın məlumatına görə, İstanbul klubu toqolunu yanvarda heyətinə qatmağı planlaşdırır. Adebayor transferə razıdır. Lakin 34 yaşlı hücumçu 2,5 illik müqavilə tələb edir. "Qalatasaray"dan isə 1,5 illik müqavilə bağlanacağını bildiriblər.

## "Bavariya" şokda: Levandovski zədələnib



Polşa millisinin və "Bavariya"nın futbolçusu Robert Levandovski zədələnib. Xarici KİV-lərin xəbərlərində qeyd edilir ki, UEFA Millətlər Liqasının 6-cı turunda Portuqaliya ilə matçda dizindən zədə alan 30 yaşlı hücumçunun ən azı bir həftəyə bərpa olunacağı bildirilib. Bu isə o deməkdir ki, Levandovki bundeslqada "Fortuna" ilə görüşü buraxacaq. Qeyd edək ki, "Bavariya" - "Fortuna" görüşü noyabrın 24-ü keçiriləcək.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500